

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ VN

№ 39 (881) ▪ 11 oktyabr 2017 www.vergiler.az Qiyməti: 60 qəp.

## Azərbaycanın uzunmüddətli, dayanıqlı inkişafı davam edəcək

**Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.**



Tədbiri giriş nitqi ilə açan dövlətimizin başçısı bildirib ki, cari ilin ötən doqquz ayında ölkəmiz uğurla və hərtərəfli inkişaf edib, bütün sahələrdə dinamik inkişaf təmin olunub. Qeyri-neft iqtisadiyyatımız 2,5 faiz artıb. Azərbaycanda qeyri-neft sənayesi 9 ayda 3,1 faiz yüksəlib, kənd təsərrüfatında artım 2,8 faiz təşkil edib, xarici ticarət dövriyyəmiz 7 faizdən çox olub. Ölkədə ixrac idxalı böyük fərqlə üstələyir: «Hər bir inkişafın göstəricisi, o cümlədən xarici ticarətin tarazlığından asılıdır. Bizdə isə ilin 9 ayında xarici ticarətin müsbət saldosu 4,4 milyard dollara bərabərdir. Əminəm ki, ilin sonuna qədər bu rəqəm daha da artacaq. Əlbəttə, bu, bizim həm iqtisadi uğurlarımızı əks etdirir, eyni zamanda, milli valyutamız manatın məzənnəsinə çox müsbət təsir göstərir. Valyuta bazarının tənzimlənməsi istiqamətində əlbəttə ki, bu, çox böyük imkanlar açır. Eyni zamanda, bu, bizim uğurlu inkişafımızın təzahürüdür. İxracımız idxaldan 4,4 milyard dollardan çoxdur».

Dövlətimizin başçısı vurğulayıb ki, 9 ayda Azərbaycanın valyuta ehtiyatları 42 milyard dollara çatıb: «Baxmayaraq ki, dünya bazarlarında neftin qiyməti hələ də aşağı səviyyədədir, bu il biz qarşıya məqsəd qoymuşduq ki, valyuta ehtiyatlarımızı artıraq. Çünki bu, bizim iqtisadi və siyasi müstəqilliyimizin əsas şərtlərindən biridir. Xərclərimizin də artmasına və ölkə qarşısında duran vəzifələrin də çoxalmasına baxmayaraq, biz çalışırıq ki, bütün vəzifələri icra edək. Bunu etmək üçün əlbəttə ki, maliyyə resursları lazımdır. Valyuta ehtiyatlarımızdan qənaətlə istifadə etməyimiz, eyni zamanda düzgün investisiya proqramımızın uğuru, əlbəttə, imkan verib ki, biz valyuta ehtiyatlarımızı artıraq. İlin əvvəlindən valyuta ehtiyatlarımız 4,5 milyard dollar artıb. Bizim siyasətimiz uzunmüddətli siyasətdir. Biz ölkəmizin gələcəyi, uzunmüddətli, dayanıqlı inkişaf haqqında düşünürük».

Paytaxt Bakıda, həmçinin bölgələrdə yeni iş yerlərinin yaradılması prosesinin uğurla getdiyini diqqətə çatdıran Azərbaycan Prezidenti bildirib ki, ötən dövrdə 226 min yeni iş yeri yaradılıb və onlardan 171 mini daimi iş yeridir. Bu da işsizliyin aşağı səviyyədə saxlanmasına imkan verir. Həyata keçirilən tədbirlər infrastruktur layihələrinin 9 ayda uğurla icra edilməsinə səbəb olub. Bu dövrdə yeddi yüz kilometrdən çox içməli su xətti çəkilib, qazlaşdırma 93 faiz səviyyəsindədir və bu proses davam edir: «Bütün bunlar özlüyündə çox gözəl göstəricidir. Elektrik enerjisi ilə təminat yaxşılaşır, yeni yarımstansiyalar tikilir, elektrik xətləri çəkilir. Meliorasiya məsələləri öz həllini tapır. İlin əvvəlində qarşıya məqsəd qoyulmuşdu ki, bu günə qədər suvarılmayan, yaxud da ki, suvarılması zəif olan 150 min hektar torpaqda bu il müasir suvarma sistemləri quraşdırılsın. Əminəm ki, biz bu rəqəmə ilin sonuna qədər çatacağıq. Mənə verilən məlumata görə, bu ilin əvvəlindən bəri 50 min hektardan çox torpaqda meliorativ tədbirlər görülmüşdür, suvarma suyu təmin edilmişdir. Qalan iki ay yarım ərzində bütün işlər başa çatmalıdır. İnfrastruktur layihələrimizin uğurlu icrası ümumi iqtisadi inkişafa, regionların inkişafına təkan verir. Əlbəttə ki, bu günə qədər həyata keçirə bilmədiyimiz infrastruktur layihələrini növbəti illərdə tam icra etməliyik».

Dövlət başçısı vurğulayıb ki, ölkəmizdə sosial infrastrukturla bağlı siyasət də uğurla aparılır: «Bu ilin əvvəlindən 100-ə yaxın məktəb tikilib, təmir edilib. Bu proses davam etdirilir. İyirmi yeddi tibb ocağı tikilib və təmir edilib. Digər sosial infrastruktur layihələri uğurla icra edilir. Məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu il tarixi hadisə baş vermişdir: Cocuq Mərcanlı kəndi bərpa edilmişdir, indi orada yeni qəsəbə salınır, 50 evdən ibarət qəsəbənin açılışı olmuşdur, əlavə 100 evin tikintisi prosesi gedir. Məktəb, məscid tikilib, tibb mərkəzi tikilməkdədir. Orada iş yerləri ilə bağlı bir çox məsələlər öz həllini tapır. Cocuq Mərcanlı kəndinin yenidən qurulması, bərpası tarixi hadisədir. Eyni zamanda, digər məsələlər, köçkünlərlə bağlı məsələlər də öz həllini tapır. Bakıda, Sumqayıtda, digər bölgələrdə tikinti işləri geniş vüsət almışdır. Bu il minlərlə ailə yeni evlərlə, mənzillərlə təmin olunacaq, bu proses gələn il də davam etdiriləcək».

**140 ölkə arasında keçirilmiş təhlil, ölkələrin rəqabətqabiliyyətliliyini əks etdirən Dünya İqtisadi Forumunun hesabatı göstərir ki, Azərbaycan dünya miqyasında iqtisadi cəhətdən 35 ən rəqabətqabiliyyətli ölkələrdəndir**

Prezident İlham Əliyev 2017-ci ildə neft-qaz sektorunda çox əlamətdar hadisələrin baş verdiyini, «Azəri-Çıraq-Günəşli» yatağının gələcəkdə işlənilməsi ilə bağlı yeni kontraktın imzalandığını xatırladıb: «Kontraktın müddəti 2050-ci ilə qədər uzadıldı. Bu kontrakt bizim üçün daha da yaxşı şərtlərlə təmin edilmişdir. Baxmayaraq ki, «Əsrin kontraktı» da Azərbaycana çox böyük faydalar gətirdi. O vaxt üçün mümkün qədər ən gözəl şərtlər təmin edilmişdir. Ancaq indiki şərtlər bizim üçün daha əlverişlidir, daha da yaxşıdır. Bu şərtlərin əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycanın iştirak payı 11 faizdən 25 faizə qaldırılır. Mənfəət neftinin 75 faizi Azərbaycan tərəfinə veriləcəkdir. Dövlət Neft Şirkəti yeni kontraktın podratçısı kimi iştirak edəcək və ölkəmizə xarici neft şirkətləri tərəfindən 3,6 milyard dollar bonus ödəniləcək. Bu, çox gözəl şərtlərdir və «Əsrin kontraktı»nın uzadılması, yeni kontraktın imzalanması tarixi hadisədir. Digər nəhəng layihə «Cənub Qaz Dəhlizi» layihəsidir. Bu istiqamətdə də işlər yaxşı gedir. «Şahdəniz-2» layihəsinin icrası 96 faiz səviyyəsindədir».

Bu il iqtisadi islahatlarla bağlı çox ciddi addımlar atıldığını, strateji yol xəritələrinin icrasının təmin edildiyini vurğulayan dövlətimizin başçısı bildirib ki, sahibkarlığın inkişafı daim diqqət mərkəzindədir. İnvestisiya təşviqi mexanizmi tam işə düşüb, sahibkarlara 200-dən çox investisiya təşviqi sənədi verilib. Bu islahatın aparılması ilə 1,7 milyard manat özəl sektor sərmayə cəlb edilib. Sənaye istehsalı, kənd təsərrüfatının inkişafı, sənaye zonalarının yaradılması sürətlənib.

Prezident İlham Əliyev vurğulayıb ki, ölkəmizin iqtisadi sahədə əldə etdiyi uğurlar Davos Dünya İqtisadi Forumunun yeni hesabatında da öz əksini tapıb: «Azərbaycan bu il iki pillə irəliləyərək 37-ci yerdən 35-ci yerə qalxıb və öz reytinqini daha da yaxşılaşdırır. Beləliklə, 140 ölkə arasında keçirilmiş bu təhlil, ölkələrin rəqabətqabiliyyətliliyini əks etdirən bu hesabat göstərir ki, Azərbaycan dünya miqyasında iqtisadi cəhətdən 35 ən rəqabətqabiliyyətli ölkə sırasındadır. Bu, böyük uğurumuzdur, tarixi nailiyyətdir. Onu da qeyd etməliyəm ki, biz MDB məkanında liderliyi saxlayırıq, qoruyuruq. Bu, əslində bizim iqtisadi siyasətimizin uğurlarını dünyanın ən mötəbər iqtisadi forumu olan Davos Forumu tərəfindən qiymətləndirilməsi deməkdir».

Çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı bildirib ki, bu məsələdə Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır: «Bu mövqe dünyanın ən ali tribunalarından açıq bəyan edilmişdir. Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır, biz bu torpaqlara qayıtmalıyıq və qayıdacağıq. Ölkəmizin ərazi bütövlüyü danışıqların predmeti deyil və heç vaxt olmayacaq. Biz torpaqlarımızda ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəyik və ərazi bütövlüyümüzün bərpası bizim əsas vəzifəmizdir. Təmas xəttindəki vəziyyət onu göstərir ki, bu gün biz təmas xəttində hakim mövqelərə tam sahibik. Əlbəttə, Ermənistan daha çox maraqlı olmalıdır ki, danışıqlar bərpa edilsin. Çünki əks təqdirdə onları çox acı nəticələr gözləyir. Məsələ ilə məşğul olan vasitəçilər çalışırlar ki, danışıqlar prosesi bərpa edilsin. Biz də əlbəttə ki, bunu dəstəkləyirik. Ona görə bir daha demək istəyirəm ki, bu il də münaqişə ilə bağlı danışıqlarda real nəticə əldə olunmasa da, Ermənistan növbəti dəfə özünü dünya ictimaiyyəti qarşısında aciz, gücsüz, asılı ölkə kimi təqdim edib».

Tədbirdə çıxış edən təhsil naziri Mikayıl Cabbarov, «Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov, Bakı Nəqliyyat Agentliyinin baş direktoru Vüsal Kərimli rəhbərlik etdikləri sahələrdə mövcud vəziyyət və görülən işlər barədə geniş məlumat veriblər.

İclasda yekun nitqi ilə çıxış edən Prezident İlham Əliyev bildirib ki, ilin sonuna üç aydan az vaxt qalır və bu müddət ərzində Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapmalıdır: «Maliyyə məsələləri ilə bağlı heç bir problem yoxdur. Büdcə göstəriciləri yaxşıdır, tam icra edilir. Ona görə, investisiya proqramının icrası əlbəttə ki, təmin ediləcəkdir. Sahibkarlığın inkişafı üçün bir çox işlər görülür. Hazırda sahibkarlara verilən güzəştli kreditlərin demək olar ki, tam həcmi əvvəllər verilmiş və qaytarılmış kreditlər hesabına təşkil edilir. Bu il kifayət qədər böyük proqram nəzərdə tutulub. İlin sonuna qədər nəzərdə tutulmuş kreditləşmə tam həcmdə təmin ediləcək».

Yol-nəqliyyat infrastrukturunun yenidən qurulması sahəsində görülən işlərdən danışan ölkə Prezidenti il ərzində yeni yol layihələrinin icra ediləcəyini, ən ucqar yaşayış məntəqələri ilə rayon mərkəzlərini, iri şəhərləri və paytaxtı birləşdirəcək yolların çəkiləcəyini, eyni zamanda kənd yollarının təmiri və çəkilişi ilə bağlı tədbirlərin davam etdiriləcəyini bildirib.

Bölgələrdə infrastruktur layihələri sırasında meliorasiya layihələrinin icrasının sürətləndirilməsinin əsas məsələlərdən olduğunu deyən dövlətimizin başçısı aidiyyəti qurumlara bu istiqamətdə əlavə tədbirlər görməyi tapşırıb: «Bu il nəzərdə tutulub ki, 150 min hektar yeni sahəyə suyun verilməsi təmin edilsin və biz bu hədəfə çatmalıyıq. Gələn il isə ən azı bu günə qədər suvarılmayan, yaxud da suvarılması lazımi səviyyədə olmayan 100 min hektar sahəyə yeni kanallar çəkilməlidir ki, bu proses daha da sürətlə getsin. Beləliklə, suvarılan torpaqların həcmi hər il artacaq. Bu da təbii ki, özlüyündə kənd təsərrüfatının sürətli inkişafını təmin edəcək. Çünki bu gündən sonra, - əslində bu məqsəd, bu vəzifə əvvəlki dövrlərdə də qarşıya qoyulmuşdur, - kənd təsərrüfatının intensiv inkişafı təmin edilməlidir».

Davamı 2-ci səhifədə

## Məcburi köçkün ailələri dövlət qayğısı ilə əhatə olunublar

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 5-də Abşeron rayonunun Masazır qəsəbəsində məcburi köçkünlər üçün salınan şəhərcikdə yeni inşa olunan üç binada mənzillərin təqdim edilməsi mərasimində iştirak edib.**




Bildirilib ki, bu binalar «Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması» layihəsi çərçivəsində tikilib. Müasir səviyyədə təmir edilən mənzillərin hamısı zəruri avadanlıqla, həmçinin qaz, su və elektrik enerjisi ilə təmin olunub. Binaların həyətində geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb.

Mərasimdə çıxış edən Birinci vitse-prezident bildirib ki, Azərbaycan dövləti erməni işğalı nəticəsində qaçqın-köçkün düşən soydaşlarımızın üzləşdiyi problemlərin həlli üçün öz gücü ilə bütün lazımi tədbirləri görüb, ölkəmizdə bir dənə də olsun çadır şəhərciyi qalmayıb, yüzədək müasir yaşayış kompleksi inşa olunub: «Bu komplekslər bütün zəruri infrastrukturla təmin edilib. Əlli min qaçqın və köçkün ailəsi, ümumilikdə 250 min insan yeni evlərə, yeni mənzillərə köçürülüb. Dörd yüz min qaçqın və köçkün yeni işlə təmin olunub. Ümumilikdə, dövlətimiz bu tədbirlərin icrası üçün 6 milyard manatdan çox vəsait xərcləyib. İndiki mərhələdə digər yerlərdə - yararsız binalarda, yarımçıq tikilmiş binalarda, yataqxanalarda, pansionatlarda, uşaq bağçalarında müvəqqəti məskunlaşmış soydaşlarımızın vəziyyəti yaxşılaşdırılmalıdır. İlk mərhələdə ən ağır vəziyyətdə yaşayan insanlar yeni mənzillərə köçürülməlidir. Bundan sonra ardıcıl olaraq digər qaçqın və köçkün ailələrinin yaşayış vəziyyəti yaxşılaşdırılmalıdır».

Davamı 2-ci səhifədə

### BU NÖMRƏMİZDƏ

QANUNSUZ SAHİBKARLIQ DÖVLƏTİN MARAQLARINA CİDDİ ZƏRƏR VERİR 2

STRATEJİ YOL XƏRİTƏLƏRİNİN İCRASI İLƏ BAĞLI TƏDBİRLƏR MÜZAKİRƏ OLUNUB 3

NAĞDSIZ ÖDƏNİŞLƏRİN HƏCMİ GENİŞLƏNDİRİLİR 4

«ABAD» KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINI STİMULLAŞDIRIR 5

# Azərbaycanın uzunmüddətli, dayanıqlı inkişafı davam edəcək

Əvvəli 1-ci səhifədə

Prezident İlham Əliyev bundan sonra da kənd təsərrüfatına diqqətin artırılacağını, pambıqçılıq, baramaçılıq, tütünçülük, fındıqçılıq, çəltikçilik, sitrusçuluq, çayçılıqla bağlı hazırlanmış dövlət proqramlarının icrasının təmin ediləcəyini diqqətə çatdırıb: «Bu proqramlar çox konkret xarakter daşıyır. Orada həm icra mexanizmləri, maliyyə vəsaiti nəzərdə tutulur. Gələn ilin dövlət büdcəsində bu proqramların reallaşması nəzərdə tutulmalıdır. Bu il kənd təsərrüfatı texnikasının alınması ilə bağlı rekord il olmuşdur. Bu il artıq 8 min texnika gətirilib. Biz bu il 10 min texnika gətirməli idik. Yəqin ki, qalan texnika da ilin sonuna qədər gətiriləcək. Bölgələrdə logistik mərkəzlərin tikintisinə başlanılmışdır. Biz əslində artıq neçə ildir ki, soyuducu anbarlar, taxıl anbarları, logistika ilə bağlı digər məsələləri uğurla həll edirik. Demək olar ki, bütün bölgələrdə bu məsələlər öz həllini tapıbdır. İndi vaxt gəlib ki, böyük ixraca hesablanmış logistik mərkəzlərin yaradılması təmin edilsin. Çünki biz əvvəlki dövrlərdə bu işləri daha çox məhsulun xarab olmaması, saxlanması və daxili tələbatın təmin edilməsi üçün görürdük. Ancaq bizim ixrac imkanlarımız artacaq və belə olan halda, mütləq böyük logistik mərkəzlər tikilməlidir. Onlardan birini mən Şəmkir rayonunda olarkən görmüşəm. Əslində o logistik mərkəzin təməlini də mən qoymuşam. İndi deyə bilərəm ki, bu bölgədə ən böyük logistik mərkəz yaradılıbdır. Hesab edirəm ki, bundan sonra bizə ən azı üç böyük logistik mərkəz lazımdır - Mərkəzi Aran, şimal və cənub zonalarında. Mən sahibkarları da bu işlərə dəvət edirəm. Dövlət öz dəstəyini verəcək, kreditlər ayıracaq, bütün lazımi infrastruktur təşkil ediləcək. Çünki bu, bizim böyük ixrac potensialımızın inkişafı üçün mütləq lazım olacaq».

Dövlətimizin başçısı tikinti sektorunda canlanmanın müşahidə olunduğunu və bu amilin tikinti materialları sektoruna müsbət təsir göstərdiyini qeyd edib: «Gələn il bu sahədə işlər daha da sürətlə gedəcək. Hazırda Bakı şəhərində 95 yaşayış binası tikilir. Bu binaların özəlliyi ondan ibarətdir ki, onlar yararsız, qəzalı vəziyyətdə olan binaların, bəzi hallarda daxmaların yerində tikiləcək. Orada yaşayan vətəndaşlara kompensasiya ödənilir, yaxud da ki, kirayə pulu verilir. Sonra onlar daha da böyük mənzillərlə təmin ediləcəklər. Artıq bir layihə icra edilib. Orada əvvəllər yaşamış və bu gün yaşayan sakinlər çox razıdırlar. Onlara təmirli, müasir və daha böyük həcmli mənzillər verilmişdir. Bu, həm sosial, həm də iqtisadi layihədir. Bunun tikinti sektoruna çox böyük təsiri var. Eyni zamanda, MİDA-nın - Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə Yasamal rayonunda böyük şəhərcik tikilir. Gələn ilin dövlət büdcəsində vəsait nəzərdə tutulmalıdır ki, həm bu layihə davam etdirilsin, həm də Hövsan qəsəbəsində MİDA-nın yeni layihəsi icra olunsun».

Azərbaycanda «ABAD mərkəz»lərin yaradılmasını müasir dövrün ən yaxşı layihələrindən hesab edən Prezident İlham Əliyev bildirib ki, bunun çox böyük faydası var. «ABAD mərkəz»lərin yaradılması özünüməşğulluq proqramının icrasına da böyük dəstək olacaq. Özünüməşğulluq proqramına gəldikdə, mən əvvəlki müşavirələrdə bu barədə göstərişlər vermişəm. İndi qanunvericilikdə də lazımi düzəlişlər edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kifayət qədər böyük vəsaiti yaranacaq və bu vəsait də özünüməşğulluq proqramının icrasına yönəldilir. İlkin məlumat müsbətdir. Bu məsələ yerlərdə çox böyük həvəslə qarşılanır. Əlbəttə ki, dövlət ağır vəziyyətdə yaşayanlar üçün öz hesabına pulsuz imkan yaradır, vəsait verir ki, onlar bundan sonra öz dolanışığını lazımi səviyyədə təmin etsinlər».

İclasın sonunda Azərbaycan Prezidenti İlham Əliyev aidiyyəti qurumlara tapşırıq və tövsiyələrini verib.

2017-ci ilin yanvar-sentyabr ayları ərzində vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə 5 milyard 224 milyon 482,6 min manat məbləğində vəsait ödənilərək Vergilər Nazirliyi üzrə müəyyənləşdirilmiş proqnoz tapşırığına 100,1 faiz əməl olunub.

Bu günlərdə Belçikanın paytaxtı Brüssel şəhərində Avropa Komissiyasının ticarət, iqtisadiyyat və əlaqədar hüquqi məsələlər üzrə alt komitəsinin 15-ci iclası keçirilib. Tədbirdə ötən iclasdan keçən dövr ərzində aidiyyəti sahələr üzrə həyata keçirilmiş islahatlar, əldə edilmiş nailiyyətlər və qarşıda duran problemlər barədə müzakirələr aparılıb.

Azərbaycan nümayəndə heyətinin tərkibində Vergilər Nazirliyini Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin Beynəlxalq əməkdaşlıq idarəsinin Beynəlxalq əlaqələr şöbəsinin rəhbəri Fərid Hacıyev təmsil edib. Vergitutma məsələlərinin müzakirəsi zamanı çıxış edən nazirliyin nümayəndəsi Azərbaycanda vergitutma sahəsində həyata keçirilən islahatlar, vergi qanunvericiliyi və inzibatçılığında aparılan dəyişikliklər və Avropa İttifaqı ilə qarşılıqlı əməkdaşlıq məsələləri barədə geniş məlumat verib.

Brüsseldə Azərbaycan Respublikası ilə Avropa İttifaqı (Aİ) arasında yeni Strateji Tərəfdaşlıq Sazişi üzrə danışıqların növbəti raundu da keçirilib. Saziş layihəsinin əmtəə ticarəti, şəffaflıq, əqli mülkiyyət hüquqları, rəqabət, gömrük məsələlərində qarşılıqlı inzibati yardım və coğrafi göstəricilər fəsilləri üzrə danışıqlarda iştirak edən F.Hacıyev aidiyyəti bəndlər üzrə Vergilər Nazirliyinin mövqeyinin Sazişdə əksini tapmasına dair təkliflərlə çıxış edib.

Tədbirdə danışıqların növbəti raundunun bu ilin sonunadək Bakı şəhərində keçirilməsi ilə bağlı qərar qəbul edilib.

# Məcburi köçkün ailələri dövlət qayğısı ilə əhatə olunublar

Əvvəli 1-ci səhifədə



Bildirilib ki, bu ilin may ayında Qaradağ rayonunun Lökbatan qəsəbəsinin yaxınlığında yeni yaşayış kompleksinin təməli qoyuldu. Bu günlər orada tikinti işləri davam edir. Yaşayış kompleksi bütün lazımi infrastrukturla təmin olunacaq, orada binalarla yanaşı, uşaq bağçası, məktəb tikilir və gələn il 1026 yeni, tam təmirli mənzil qaçqın və məcburi köçkün ailələrinin istifadəsinə veriləcək: «Bu ilin iyun ayında Xəzər rayonunun Şüvəlan qəsəbəsində çox pis vəziyyətdə olan pansionatda və Xətai rayonunda yarımçıq tikilmiş binada yaşayan 214 ailə Mehdiabad və Masazır qəsəbələrində yeni tikilmiş, tam təmirli evlərə köçürülüb. Bu gün isə biz Abşeron rayonunun Masazır qəsəbəsində yeni inşa olunmuş binalardakı tam təmirli mənzillərə 210 ailə, Sabunçu rayonunun Ramana qəsəbəsində inşa edilmiş binadakı tam təmirli mənzillərə 50 ailə və Xətai rayonunda inşa edilmiş binadakı tam təmirli mənzillərə 465 ailə köçürürük. Ümumilikdə bu, 725 ailənin yaşayış şəraitinin yaxşılaşdırılması deməkdir».

Oktyabrın 5-də - Beynəlxalq Müəllimlər Günündə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Sabunçu rayonunun Ramana qəsəbəsində Qubadlı rayon Xanlıq kənd ümumi orta məktəbi üçün istifadəyə verilən yeni binada yaradılan şəraitlə də tanış olub. Qeyd edilib ki, bu təhsil müəssisəsi 2017-2018-ci tədris ilində istifadəyə verilib. Məktəbin binasının inşasına bu il başlanılıb və dörd ay ərzində tikilib istifadəyə verilib. 196 şagird yerlik məktəb Qubadlıdan olan məcburi köçkün ailələrinin və ətraf ərazidə yaşayan sakinlərin övladları üçün nəzərdə tutulub.

Mehriban xanım Əliyeva məktəbdə təhsil alan birinci sinif şagirdləri ilə söhbət edib, onların dərsləri ilə maraqlanıb, yüksək balla ali məktəblərə daxil olan Qubadlı rayonunun şagirdlərinin fotolarından ibarət stendə baxıb. Sonra məktəbin kollektivi ilə görüşən Birinci vitse-prezident tədris ocağının yeni binasının istifadəyə verilməsi və Beynəlxalq Müəllimlər Günü münasibətilə təbriklərini çatdırıb.

Həmin gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva Bakının Sabunçu rayonunun Ramana qəsəbəsində məcburi köçkün ailələri üçün inşa edilən yeni bina ilə tanış olub. Bildirilib ki, bu bina «Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması» layihəsi çərçivəsində inşa edilib. Tikinti işlərinə bu ilin mart ayında başlanılıb. Beşmərtəbəli binada beş birotaqlı, iyirmi ikiotaqlı, iyirmi üçotaqlı və beş dördotaqlı mənzil var.

Binada yaradılan şəraitdən məmnunluğunu ifadə edən Mehriban xanım Əliyevaya məlumat verilib ki, buraya Xətai rayonunda və Sarıqaya yaşayış massivində qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış 50 ailə köçürüləcək.

# Dayanıqlı inkişaf üçün mayak

## Bir il əvvəl qəbul edilmiş strateji yol xəritələri Azərbaycan iqtisadiyyatının inkişafı qarşısında yeni səhifə açıb

Milli Məclisin deputatı Sədaqət Vəliyeva bildirib ki, dünyada cərəyan edən proseslərin yaratdığı yeni çağırışlara uyğunlaşmaq və mövcud qlobal iqtisadi böhranın ölkəmizə təsirini minimuma endirmək məqsədilə iqtisadi islahatların strateji hədəflərinə uyğun olaraq inkişafın keyfiyyətcə yeni mərhələsinə keçid qarşıda duran prioritet vəzifələrdən idi. Strateji hədəfləri reallaşdırmaq və ölkədə həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək üçün isə iqtisadiyyatın mövcud vəziyyətinin dərindən təhlili və yeni iqtisadi inkişaf strategiyasının hazırlanması məqsədilə strateji yol xəritələri təsdiq edildi: «Yeni sənaye məhəllələrinin salınması, aqrokomplekslərin yaradılması, yerli və xarici investorların iqtisadiyyatımıza sərmayə yatırması üçün cəlbetmə işlərinin həyata keçirilməsi, yeni istehsal olunan məhsulların xarici bazarlarda satışının təmin edilməsi, «Made in Azerbaijan» brendinin müxtəlif ticarət nümayəndəlikləri və subyektləri vasitəsilə dünyada tanıdılması və s. kimi tədbirlərin reallaşdırılması nəticəsində Azərbaycan iqtisadiyyatına yeni nəfəs gətirildi...

Strateji yol xəritələri əsasında icra olunmuş layihələrin 32 faiz, icrası başlanmış layihələrin isə 59 faiz təşkil etməsi onu göstərir ki, Azərbaycan yaxın müddət ərzində iqtisadiyyatın daha sürətli inkişafına töhfəsini verəcək layihələrin hamısını işə salacaq. Yarım il ərzində insan kapitalının inkişaf etdirilməsinin 50 faizə çatdırılması, əlverişli biznes mühitinin inkişafı üçün potensial imkanların 88 faizə qaldırılması, özəlləşdirmə prosesinin isə tam olaraq işə salınması belə bir qənaəti ortaya qoyur ki, gələn il sürətli tərəqqi dövrü olacaq, ölkəyə xaricdən daxil olan valyuta daha da artacaq, əlavə yeni müəssisələr fəaliyyətə başlayacaq.

# Qanunsuz sahibkarlıq dövlətin maraqlarına ciddi zərər verir

**Azərbaycanda qanunsuz sahibkarlıqla bağlı qanunvericiliyə yeni dəyişikliklərin edilməsi nəzərdə tutulur. İqtisadi, maliyyə, təsərrüfat fəaliyyəti ilə bağlı cinayət hallarına qarşı yeni tədbirlərin görülməsini nəzərdə tutan yeni layihə Milli Məclisin sentyabrın 29-da keçirilən müvafiq komitələrində müzakirə olunub. Cinayət Məcəlləsinin 192-ci maddəsinə (qanunsuz sahibkarlıq) yeni - 3.1 və 3.2 bəndlərinin əlavə edilməsi, eləcə də digər qanunvericilik sənədlərinə təklif olunan dəyişikliklərə əsasən, xüsusi razılıq (lisenziya) sənədi olmadan və vergi uçotuna alınmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq və gəlir əldə etməyə görə cəzaların sərtləşdirilməsi, həmin şəxslər üçün əldə edilən gəlirin 4 misli miqdarında cərimə və ya 5 ildən 7 ilədək müddətə azadlıqdan məhrum etmə cəzasının tətbiqi nəzərdə tutulur.**

### Sahibkarlar imtiyazlardan sui-istifadəyə yol verməməlidir

Müşahidələr göstərir ki, bəzi işbazlar qanunvericiliyin kifayət qədər sərt olmamasından sui-istifadə edərək, vergi orqanlarında uçota durmamaqla vergiləri dövlət büdcəsinə ödəməkdən yayınırlar. Milli Məclisin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin üzvü Aydın Hüseynovun sözlərinə görə, dövlət son bir ildə sahibkarlara müxtəlif güzəştlər edib. Yoxlamaların dayandırılması, lisenziyaların sayının azaldılması, ixrac prosedurlarının asanlaşdırılması və digər stimullaşdırıcı tədbirlər sahibkarlara öz fəaliyyətlərini genişləndirmək, yeni sahibkarlıq subyektləri yaratmaq imkanı vermək baxımından çox əhəmiyyətlidir. Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, 2016-cı il iyunun 1-dən 2000 manat məbləğində vergi və gömrük borcu olan sahibkarlar cinayət məsuliyyətindən azad olunublar. Yeni qanunun qüvvəyə minməsindən sonra cinayət məsuliyyəti yaradan hədd 10 dəfə artırılaraq 20.000 manata qaldırılıb. Başqa sözlə, 20.000 manata qədər vergi və gömrük rüsumlarından yayınan şəxslər artıq cinayət məsuliyyətinə deyil, inzibati məsuliyyətə cəlb edilirlər. Dövlətin sahibkarların hüquqlarının və mənafelərinin qorunması üçün ən mütərəqqi addımlar atmasına baxmayaraq, bəzi hallarda sahibkarlar yenə də vergidən yayınır, öz dövriyyələrini gizlətməyə çalışırlar.

### İqtisadi cinayətkarlığa qarşı mübarizə sərt və davamlı olacaq

Vergilər Nazirliyi tərəfindən vergi hüquqpozmalarına qarşı aparılan mübarizə tədbirləri gücləndirilsə də, o cümlədən qanunsuz sahibkarlığın qarşısının alınması istiqamətində mühüm tədbirlər görülsə də bəzi şəxslərin vergidən yayınmaq məqsədilə uçota alınmadan fəaliyyət göstərməsi hallarına tez-tez rast gəlinir. Qanunsuz sahibkarlıq hallarında daha çox rast gəlinən sahələr nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulması, əmək müqavilələri hüquqi qüvvəyə minmədən şəxslərin muzdlu işə cəlb edilməsi, gəlir və xərclərin uçotunun aparılmaması, satış məqsədilə mallar alınarkən rəsmiləşdirilmənin həyata keçirilməməsidir.

Vergi orqanları qanunla müəyyən edilmiş hallar üzrə dövlət büdcəsinə ödənilməli olan vergiləri müxtəlif yollarla yayındırmağa çalışan sahibkarlara qarşı daim mübarizə aparıb, onları qanunvericiliyin tələblərinə riayət etməyə çağırıb. Vergi nəzarəti tədbirlərini artırmaq və vergidən yayınma hallarının qarşısını qətiyyətlə almaq məqsədilə ötən il Vergilər Nazirliyinin Vergi cinayətlərinin ibtidai araşdırılması departamentində yeni struktur bölmə - İqtisadi sahədə mütəşəkkil cinayətkarlığa qarşı mübarizə idarəsinin tərkibində qanunsuz sahibkarlıq fəaliyyətinə qarşı mübarizə şöbəsi yaradılıb. Məqsəd qanunsuz sahibkarlıq və mütəşəkkil qaydada vergidən yayınma halları ilə mübarizə sahəsində vəziyyəti yaxşılaşdırmaq, ciddi qanun pozuntularına qarşı mübarizənin səmərəliliyini artırmaqdır.

### Qanunun aliliyinin təmin olunması istiqamətində qəti addımlar atılır

2017-ci ilin birinci yarısında vergi hüquqpozmalarına qarşı görülmüş mübarizə tədbirləri təsdiq edir ki, vergi uçotuna dayanmadan qeyri-qanuni yolla sahibkarlıqla məşğul olan şəxslərin sayı kifayət qədər çoxdur. Məsələn, 6 ayın göstəricilərinə əsasən, Vergilər Nazirliyi yanında Vergi cinayətlərinin ibtidai araşdırılması departamentində vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə başlanmış 139 cinayət işi üzrə aparılan araşdırmalar zamanı 7 milyon 806,5 min manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilib. 38 cinayət işi üzrə büdcədən yayındırılmış vergilər ibtidai istintaq zamanı tamamilə ödənildiyinə görə onların icraatına xitam verilib. Departamentin İstintaq idarəsində 254 cinayət işi üzrə ibtidai istintaq tamamlanıb, 5 nəfər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilib. İstintaqı tamamlanmış cinayət işlərindən 65 iş üzrə 75 nəfər şəxs barəsində materiallar ittiham aktı ilə aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilib. İstintaq-əməliyyat tədbirləri nəticəsində vergi cinayətləri törətdiklərinə görə barələrində axtarış elan olunmuş 13 nəfər şəxs tutularaq İstintaq idarəsinə təhvil verilib, ibtidai istintaqdan yayınan 129 şəxsin məcburi qaydada gətirilməsi, 172 şəxsin tapılaraq istintaqa gəlmələri, 190 şəxsin yerinin müəyyən olunaraq istintaqa məlumat verilməsi təmin edilib. Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına köməklə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından, əmlakının siyahıya alınmasından yayınan və fəaliyyəti barədə bəyannamə təqdim etməyən 82 nəfər vergi ödəyicisi tapılaraq vergi orqanlarına təhvil verilib.

### E-qaimə-fakturalar üzrə ciddi qanunsuzluqlar qeydə alınıb

2017-ci ilin aprel ayının 1-dən sahibkarlıq subyektləri arasında mal, iş və xidmətlər üzrə əməliyyatların rəsmiləşdirilməsi zamanı tətbiq olunan elektron qaimə-fakturalar üzrə bir sıra qanun pozuntuları aşkar olunub. Həyata keçirilən tədbirlər zamanı vergi ödəyiciləri tərəfindən aparılan əməliyyatlarda kifayət qədər risklərin yarandığı müəyyən edilib. Bəzi vergi ödəyicilərinin təqdim etdikləri mallara (işlərə, xidmətlərə) görə elektron qaimə-fakturaların verilmədiyi, malların (işlərin, xidmətlərin) satılmasına baxmayaraq, həmin əməliyyatlara görə vergilərin dövlət büdcəsinə ödənilmədiyi, satışdan əldə edilmiş pul vəsaitlərinin uçota alınmadığı, «Nağdsız hesablaşmalar haqqında» Qanunun tələblərinə əməl olunmadığı və pozuntulara yol verildiyi aşkar olunub. Bəzi hallarda isə vergi ödəyiciləri heç bir təsərrüfat subyekti (anbarı, mağazası və s.) olmadığı halda, aldıqları (idxal etdikləri) malların satışını vergiyə cəlb etmədən, həmin malları «mal qalığı» kimi göstəriblər.

Vergilər Nazirliyi vergi əməliyyatlarında şəffaflığın təmin edilməsi, o cümlədən vergi orqanında uçota durmadan qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olan, mallarını və pul vəsaitlərini uçotdan yayındıran, habelə dövriyyələrini gizlədərək vergidən yayınan şəxslərin aşkar edilməsi məqsədilə vergi nəzarəti tədbirlərini davam etdirir. Nazirlik bir daha xəbərdarlıq edir ki, qanun pozuntularının və vergidən yayınma hallarının qarşısı gələcəkdə də qətiyyətlə alınacaq, intizamsız vergi ödəyicilərinə qarşı qanunvericilikdə nəzərdə tutulan ciddi tədbirlər görüləcəkdir.

> Dövlətin sahibkarların hüquqlarının və mənafelərinin qorunması üçün ən mütərəqqi addımlar atmasına baxmayaraq, bəzi hallarda sahibkarlar yenə də vergidən yayınır, öz dövriyyələrini gizlətməyə çalışırlar

**Elbrus CƏFƏRLİ**

# Əlverişli biznes mühiti bəhrəsini verir

**Səmərəli islahatlar beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinə mühüm təsir göstərib**

İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova bildirib ki, sahibkarlığın inkişafına əsaslanan rəqabətqabiliyyətli milli iqtisadiyyatın formalaşdırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində tədbirləri davam etdirmək əsas strateji hədəflərdən biri kimi müəyyən olunub və həmin hədəflərə çatmaq üçün ən yüksək beynəlxalq standartlara uyğun elektron xidmətlər istifadəyə verilib. Son bir ildə qanunvericilik və inzibatçılıq təkmilləşdirilib, biznes və rəqabət mühiti daha da yaxşılaşdırılıb.

**Vergi sahəsində müsbət reytinqin əldə olunması davamlı fəaliyyətin nəticəsidir**

Azərbaycanda biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı siyasətin mühüm istiqamətlərindən biri də vergi sahəsində yüksək beynəlxalq reytinqin əldə edilməsi tendensiyasının saxlanılmasıdır. Vergi sisteminin və inzibatçılığının rəqabətqabiliyyətliliyinə nail olunması üçün vergi xidmətində mütərəqqi beynəlxalq təcrübənin tətbiqini daim diqqətdə saxlayan Vergilər Nazirliyi son illərdə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, biznesə başlama üzrə prosedurların asanlaşdırılması, vergi güzəştləri, vergi yükünün aşağı salınması və digər tədbirlər Azərbaycanda azad biznesin inkişafında mühüm nəticələrin əldə edilməsinə səbəb olub.

**İkiqat vergitutmanın aradan qaldırılması sazişləri elektronlaşdırılıb**

Vergilər Nazirliyi 2017-ci ildə biznesin təşviqi məqsədilə vergi sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində digər işləri də davam etdirib. İlin ortalarında ikiqat vergitutmanın aradan qaldırılması sazişləri üzrə ən mütərəqqi texnologiyaların tətbiqinə başlanılıb, beynəlxalq sazişlərin inzibatçılığı qaydaları sadələşdirilib. İslahatlardan əvvəlki inzibatçılıq qaydalarında ikiqat vergitutmanın aradan qaldırılması (DTA) sazişləri üçün 6 ərizə forması tələb olunurdu, 4 gəlir növü üzrə güzəştlərin əvvəlcədən tətbiqi, digər gəlir növlərində vergilərin sonradan geri qaytarılması, həmçinin kağız daşıyıcısından istifadə tətbiq edilirdi. Sənədlərin kağız formasında tərtibinə, ərizə doldurulmasına və digər işlərə vergi orqanı əməkdaşları xeyli vaxt sərf edirdilər. Bəzi hallarda sənədlər səhv tərtib olunur, nəticədə vergi orqanı tərəfindən imtina yazılırdı. Ona görə də sazişlərin asanlaşdırılması ilə bağlı mühüm tədbirlər görüldü və DTA sazişləri elektronlaşdırıldı. Hazırda sənəd formaları sadələşdirilərək sayı azaldılıb, elektron müraciət etmək imkanı yaradılıb, kağız dövriyyəsi minimuma endirilib. Vergi ödəyiciləri üçün bütün gəlir növləri üzrə güzəştlərin əvvəlcədən tətbiq edilməsi və formanın təsdiqinin gəlir ödəyən şəxsə birbaşa onlayn göndərilməsi nəzərdə tutulub. Bu islahatların ən mühüm istiqamətlərindən biri Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza, o cümlədən «ASAN imza» sertifikatının verilməsidir. Yəni artıq xarici ölkələrə elektron imza, o cümlədən «ASAN imza» sertifikatlarının qarşılıqlı tanınması təmin edilib. Bütün bunlar vergi ödəyicilərinin xərclərinin optimallaşdırılmasına və biznesin təşviqinə xidmət edir, xarici biznes tərəfdaşları arasında sənədlərin elektron formada tərtibinə və imzalanmasına, digər dövlətlərlə elektron məlumat mübadiləsinə, transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə, xarici investorlar üzrə vergi və inzibati xərclərin azalmasına imkan verir.

> İnzibatçılığın təkmilləşdirilməsi, kiçik və orta sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına şərait yaradan vergi siyasətinin həyata keçirilməsi, müxtəlif biznes sahələri üçün vergi güzəştləri, vergi yükünün aşağı salınması və digər tədbirlər Azərbaycanda azad biznesin inkişafında mühüm nəticələrin əldə edilməsinə səbəb olub

2017-ci ildə sahibkarlıq fəaliyyətinin optimal gəlirliliyi təmin edilib, rəqabət prinsiplərinə əsaslanan biznes mühiti yaradılıb, ölkənin investisiya cəlbediciliyi artırılıb. Bu faktorlar beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin yaxşılaşmasına səbəb olub. Dünya İqtisadi Forumunun dünya ölkələrinin rəqabətqabiliyyətliliyi səviyyəsini xarakterizə edən növbəti «Qlobal Rəqabətqabiliyyətlilik İndeksi 2017-2018» hesabatında Azərbaycanın iki pillə irəliləyərək 35-ci yerdə qərarlaşması məhz həmin islahatların mühüm nəticəsi hesab olunur.

İqtisadiyyat nazirinin müavini qeyd edib ki, rəqabət reytinqinin artması islahatların səmərəliliyini göstərməklə yanaşı, ölkəmiz üçün geniş imkanlar yaradır. Azərbaycan iqtisadiyyatına investisiya yatırmaq niyyətində olan istənilən investor üçün rəqabətlilik hesabatı əhəmiyyətli rol oynayır. Hansısa ölkəyə sərmayə qoymaq istəyən xarici şirkət və investor, ilk növbədə, həmin ölkənin beynəlxalq reytinq əmsalına diqqət yetirir. Bu mənada, ölkəmizin yüksək reytinqinin olması investisiya cəlbediciliyinin fonunda xarici sərmayə qoyuluşlarının artmasına öz mühüm təsirini göstərəcək, eyni zamanda, milli sahibkarlarımızın və şirkətlərimizin dünya bazarlarına çıxışını asanlaşdıracaq.

Azərbaycanın rəqabət qabiliyyətini möhkəmləndirmək, beynəlxalq reytinqlərdə mövqeyini daha da yaxşılaşdırmaq məqsədilə tədbirlərin davam etdiriləcəyini deyən S.Həsənova xatırladıb ki, biznes islahatları üzrə Tədbirlər Planı çərçivəsində dövlət biznes mühitinin institusional əsaslarını gücləndirəcək, qanunvericilik qabaqcıl beynəlxalq təcrübəyə əsaslanaraq təkmilləşdiriləcək.

xarici investorlar üçün müxtəlif güzəştlərin tətbiqi, istehsal və ixracla məşğul olan sahibkarların vergi yükünün əhəmiyyətli dərəcədə aşağı salınması ilə bağlı səmərəli islahatlar həyata keçirib. Biznes mühitinin əlverişliliyinin artırılması istiqamətində həyata keçirilən digər tədbirlər vergi qanunvericiliyinin və vergi inzibatçılığının təkmilləşdirilməsinə və nəticədə Azərbaycanın beynəlxalq reytinqdə irəliləməsinə səbəb olub.

Bu sahədə davamlı olaraq təcrübə mübadiləsi aparan Azərbaycanın vergi sistemi beynəlxalq tələblərə uyğun qurulub və bütün bu amillər respublikamızın vergi administrasiyasının beynəlxalq vergi qurumlarının reytinq və hesabatlarında səmərəli şəkildə irəliləməsini şərtləndirib. Vergi sistemində aparılan siyasətin başlıca hədəflərindən biri dünyada əsas prinsiplər kimi qəbul olunan şəffaflıq standartının tətbiqidir. Vergilər Nazirliyi bu istiqamətdə beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edib, vergi orqanları arasında məlumat mübadiləsinin genişləndirilməsi və beynəlxalq standartların tətbiqi istiqamətində ardıcıl tədbirlər həyata keçirib.

Aparılan məqsədyönlü siyasət öz müsbət nəticələrini verib və respublikamız OECD-nin «Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forumu»nun yüksək reytinqinə layiq görülüb. 2016-cı ilin oktyabr ayında Azərbaycan vergi məqsədləri üçün şəffaflıq və məlumat mübadiləsi üzrə «əsasən uyğundur» reytinqini alıb. Qlobal Forum ölkəmizin vergi sistemini qiymətləndirərkən son illərdə həyata keçirilən islahatların mühüm nəticələrini nəzərə alıb. İnzibatçılığın təkmilləşdirilməsi, kiçik və orta sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına şərait yaradan vergi siyasətinin həyata keçirilməsi, müxtəlif biznes sahələri üçün

**Elbrus CƏFƏRLİ**

# Strateji yol xəritələrinin icrası ilə bağlı tədbirlər müzakirə olunub

**Ölkə başçısının «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında» 2016-cı il 6 dekabr tarixli fərmanının icrası məqsədilə Vergilər Nazirliyinin əsas icraçısı olduğu istiqamətlər üzrə fəaliyyət göstərən işçi qrupların iclası keçirilmişdir.**

Sentyabrın 28-29-da Vergilər Nazirliyinin inzibati binasında «Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»nin Tədbirlər Planında nəzərdə tutulmuş «Səmərəli vergi sisteminin təşviq edilməsi» və «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»nin Tədbirlər Planında nəzərdə tutulmuş «Kiçik və orta sahibkarlıq sahəsində stimullaşdırıcı vergi islahatlarının davam etdirilməsi» ilə bağlı görülən işlər müzakirə olunmuşdur.

Vergilər, Maliyyə, İqtisadiyyat nazirliklərinin və Mərkəzi Bankın nümayəndələrinin iştirak etdiyi iclasda çıxış edən işçi qrupun rəhbəri Samirə Musayeva bildirmişdir ki, «Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi» və «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq (KOS) səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi» üzrə hazırlanmış qanun layihələrinin və metodiki vəsaitin hazırlanmasının əsas məqsədi biznes subyektlərinin fəaliyyətində şəffaflığın təmin edilməsi, davamlı iqtisadi inkişaf tempinə uyğun olaraq vergi sistemi və inzibatçılığının təkmilləşdirilməsi sahəsində islahatların davam etdirilməsi, xüsusilə KOS subyektlərinin inkişafı üçün daha əlverişli vergi mühitinin formalaşdırılmasıdır. Qeyd olunmuşdur ki, məşğulluğun təmin edilməsi istiqamətində dövlət dəstəyinin artırılması, ixracın və nağdsız hesablaşmaların stimullaşdırılması və yeni qeydiyyatdan keçən vergi ödəyicilərinin sahibkarlıq fəaliyyətinə dövlət dəstəyinin, vergi öhdəliklərinin yerinə yetirilməsində onlara metodiki köməkliyin göstərilməsi də əsas məqsədlərdəndir.

İclasda, həmçinin, 2017-ci il ərzində nəzərdə tutulmuş «KOS subyektlərində muzdla işləyən işçilərin sayından və əməkhaqqı fondundan asılı olaraq, vergi güzəştlərinin tətbiqi mexanizmi», «Pərakəndə ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən mal (iş, xidmət) təqdim edilməsi üzrə nağdsız əməliyyatlara vergi güzəştlərinin tətbiqi mexanizmi», «Vergi ödəyicilərində keçirilmiş vergi nəzarəti tədbirləri nəticəsində onlara hesablanmış vergi və maliyyə sanksiyalarının ödəmə müddətindən tez ödənilməsinə görə maliyyə sanksiyaları üzrə güzəştlərin tətbiqi mexanizmi», «Müəyyən edilmiş şərtlər daxilində özəlləşən dövlət müəssisələrinin əmlak vergisi üzrə borclarının silinməsi, növbəti 3 il ərzində vergi güzəştinin tətbiqi mexanizmi» və digər istiqamətlər üzrə hazırlanmış qanun layihələri müzakirə olunmuşdur. Eyni zamanda, «Yeni qeydiyyatdan keçən vergi ödəyicilərinin fəaliyyət istiqamətləri üzrə məlumatlandırma mexanizmlərinin hazırlanması» metodiki vəsait ətrafında fikir mübadiləsi aparılmışdır. Sonda müzakirə edilən mövzular, müvafiq təkliflər nəzərə alınmaqla, iştirakçılar tərəfindən məqbul hesab olunmuş, aidiyyəti üzrə təqdim edilməsi qərara alınmışdır.



> Yeni qeydiyyatdan keçən vergi ödəyicilərinin sahibkarlıq fəaliyyətinə dövlət dəstəyinin, vergi öhdəliklərinin yerinə yetirilməsində onlara metodiki köməkliyin göstərilməsi də əsas məqsədlərdəndir

Xatırladaq ki, işçi qrupun bundan əvvəlki iclasları «Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi»nin Tədbirlər Planında nəzərdə tutulmuş «Kənd təsərrüfatı məhsullarının daxili bazardakı ticarəti üzrə uçot göstəriciləri ilə bağlı tənzimləmə sisteminin hüquqi əsaslarının təkmilləşdirilməsi» və «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»nin Tədbirlər Planında nəzərdə tutulmuş «Yoxlamaların optimallaşdırılması və risk dərəcəsi əsasında aparılması»nın icrasına həsr olunmuşdur.

**Aytən NƏBİYEVA**

# İqtisadiyyatın mikrokreditlərlə təmin olunmasında mikromaliyyə təşkilatlarının rolu

Bakıda keçirilən «Azərbaycanda mikromaliyyənin gələcəyi: çətinliklər və imkanlar» mövzusunda beşinci investorlar yarmarkasında çıxış edən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı iqtisadiyyatın mikrokreditlərlə təmin olunmasında mikromaliyyə təşkilatlarının rolunun artırılması üçün xərclərinin aşağı salınmasının vacibliyini bildirib. Onun sözlərinə görə, müasir çağırışlar, aparılan islahatlar bunu tələb edir. Mikromaliyyə sektorunda «Fintech» (maliyyə xidmətlərinin daha yaxşı, sürətli və asan reallaşdırılması məqsədilə maliyyə və texnologiyanın bir araya gətirilməsi) tətbiq edilməsə xərclərin aşağı salınması mümkün olmayacaq. İcraçı direktor ələvə edib ki, artıq Azərbaycanda bahalı kreditlər dövrü geridə qalıb: «Banklar tərəfindən əlçatan kredit faizləri və maliyyə xidmətləri təklif olunmalıdır ki, biznes və ev təsərrüfatlarının mikromaliyyəyə marağı artsın. Mikromaliyyənin xərclərinin yüksək olması isə təklif edilən kreditlərin əlçatanlığına imkan verməyəcək, əlverişsiz şərtlər əsasında istehsal və xidmət sektorunun nümayəndələri, kiçik biznes icmaları, ev təsərrüfatları ilə əməkdaşlıq və bu təşkilatın yetərli müştəri bazası olmayacaq. «Fintech»in tətbiqi mikrokreditləri ucuzlaşdırmağa imkan verəcək».

Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) Strateji xidmətlər departamentinin direktoru Asim Zülfüqarov da faiz dərəcələri və komisyon haqlarının yüksək olduğunu xatırladaraq bununla bağlı mikromaliyyə institutlarını dialoqa dəvət edib. Qeyd olunub ki, mikromaliyyə təşkilatlarının fəaliyyətinə ən çox mənfi təsir edən amillərdən biri devalvasiyanın baş verməsi olub. İkiqat devalvasiya nəticəsində mikromaliyyə institutlarının xarici valyutada olan öhdəlikləri artıb və nəticədə əlavə xərclərlə yüklənmiş əhali ilə mikromaliyyə institutları üz-üzə qalıb, bu isə həmin qurumların maliyyə portfelinin keyfiyyətində zəifləməyə səbəb olub. Bu, müştərilərin itirilməsi və sektorun aktivlərinin azalması ilə nəticələnib.

A.Zülfüqarov Maliyyə Bazarlarına Nəzarət Palatasının maliyyə sektorunda sabitliyin təmin olunması istiqamətində atdığı addımlar çərçivəsində mikromaliyyə təşkilatlarına dəstək verdiyini, onların sağlamlaşdırılması tədbirlərinin həyata keçirildiyini xatırladıb, əlavə edib ki, hazırda sektorda 123 bank olmayan kredit təşkilatı mövcuddur və maliyyə qurumları dəmək olar ki, mənfəətlə işləyir. Palata 2018-ci ildə dayanıqlığa və maliyyə inklüzivliyinin artırılmasına yönəlik siyasəti yürüdəcək və mikromaliyyə qurumlarının bundan faydalanması gözlənilir. MBNP-nin departament rəhbəri mikromaliyyə təşkilatlarının ödəniş sistemlərinə inteqrasiya olunması və maliyyə texnologiyalarından geniş istifadə etməsi üçün tənzimləmə siyasətində dəyişikliklər olunacağını da vurğulayıb. Bildirib ki, tənzimləmə siyasətində dəyişiklik əhali və bu sektorun müştərilərinin maliyyə xidmətlərinə əlçatanlığını maksimum dərəcədə artırmağa imkan verəcək.

Azərbaycan Mikromaliyyə Assosiasiyasının (AMFA) icraçı direktoru Jalə Hacıyeva bu sektorun dövlətin dəstəyinə ehtiyacı olduğunu vurğulayıb. Qeyd edib ki, mikromaliyyə qurumları banklarla yanaşı, iqtisadiyyatın müxtəlif sahələrinin kreditə olan ehtiyaclarının ödənilməsində, xüsusilə də bölgələrdə çalışan kiçik və orta sahibkarlara kreditlərin verilməsində fəal rol oynayır. Fəaliyyətə başladığı vaxtdan ötən 20 il ərzində mikromaliyyə təşkilatları tərəfindən 20 milyard manatdan artıq kredit verilib. J.Hacıyeva əlavə edib ki, 2015-2016-cı illərdə baş verən devalvasiyadan sonra bank və mikromaliyyə sektorunda geri qaytarılmayan kreditlər əhəmiyyətli dərəcədə artıb. Bu amil mikromaliyyə sektorunda fəaliyyət göstərən investorlar və kreditorları daha həssaslıqla işləməyə vadar edib. Amma dövlətin son 2 ildə maliyyə və bank sabitliyinin təmin olunması, maliyyə sektorunun likvidliyinin artırılması istiqamətində atdığı addımlar mikromaliyyə təşkilatlarının fəaliyyətinin müasir çağırışlara uyğunlaşmasına səbəb olub. Hökumətin əlkədə mikromaliyyə sektoruna verdiyi dəyər və şəffaf, effektiv fəaliyyət üçün təmin etdiyi əlverişli mühit qarşıdakı dövrdə kiçik və orta sahibkarlığın mikromaliyyə təminatında mühüm rol oynayacaq.

> Banklar tərəfindən əlçatan kredit faizləri və maliyyə xidmətləri təklif olunmalıdır ki, biznes və ev təsərrüfatlarının mikromaliyyəyə marağı artsın

**ELBRUS**

# Manatın dövretmə sürəti yüksəlib

Azərbaycan Mərkəzi Bankının (AMB) hesabatına əsasən, avqust ayında Azərbaycanın milli valyutası - manatın dövretmə sürəti 5,89 bənd təşkil edib və bu, əvvəlki ayla müqayisədə 0,2 bənd, ötən ilin analoji dövrü ilə müqayisədə isə 0,11 bənd çoxdur. Xatırladaq ki, bu ilin yanvar ayının 1-nə manatın dövretmə sürəti 5,2 bənd olmuşdu.

«Report» informasiya agentliyinin analitik qrupunun AMB-nin statistikasına əsasən apardığı təhlilin nəticələrinə görə, manatın dövretmə sürətinin son 16 il ərzində ən minimal həddi 2015-ci ilin yanvarında, yəni ilk devalvasiya ərəfəsində qeydə alınıb və 2,68-ə bərabər olub. Bu göstəricinin maksimal həddi isə 2005-ci ildə (15,72%) qeydə alınıb.

Qeyd edək ki, manatın dövretmə sürəti inflyasiya ilə ümumi daxili məhsulun hasilinin dövriyyədə olan manat kütləsinə nisbətinə bərabərdir. Avqustda manatın dövretmə sürətinin artması dövriyyədə olan manat kütləsinin iyul ayı ilə müqayisədə 201 mln. manat və ya 1,77% azalması və aylıq inflyasiyanın 0,2% olması ilə bağlıdır.

«Cari vəziyyətdə manatın dövretmə sürətinin tədricən artması faktının təhlili onu göstərir ki, Azərbaycanda yumşaq inflyasiya davam edir, dövriyyədəki manat kütləsi isə yumşaq şəkildə azalır. Qeyd edək ki, yaxın aylarda manatın dövretmə sürətində, dövriyyədə olan nağd pul kütləsinin həcmində ciddi dəyişiklik gözlənilmir. Mövsümi olaraq növbəti aylarda inflyasiyanın sürətlənməsi fonunda manatın dövretmə sürətinin yumşaq şəkildə artıma davam etməsi mümkündür», - analitiklər qeyd ediblər.

Ekspertlərin rəyinə görə, əgər manatın dövretmə sürətinin artması inflyasiyanın sürətlənməsi və ÜDM artımı fonunda manat kütləsinin sabit qalması ilə baş verirsə, bu, iqtisadiyyat üçün müsbət amildir: «Lakin ÜDM-in azalması, inflyasiya artımı və manat kütləsinin azalması fonunda baş verirsə, bu, iqtisadiyyatda durğunluq əlaməti sayılır».

# Qeyri-neft məhsullarının ixracı artıb

Bu ilin ilk 9 ayı ərzində Azərbaycan Respublikasından qeyri-neft ixracı 1 milyard 69 milyon ABŞ dolları təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə təxminən 30 faiz artım deməkdir. Qeyri-neft ixracının sürətlə artması ölkədə aparılan əhatəli iqtisadi islahatların birbaşa nəticəsidir.

Bu il ixracda iştirak edən şirkətlərin sayında da artım müşahidə olunur. Doqquz ayda 1582 şirkət bilavasitə qeyri-neft ixracına cəlb edilib. Bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə daha çox şirkətlərin ixrac həcmini artırmasıdır. İxracda sənaye məhsulları, o cümlədən polad, alüminium, polietilen, plastik məmulatlardan hazırlanmış məhsullar, eyni zamanda, kənd təsərrüfatı məhsulları ilk onluqdadır. Bu müddətdə ölkədən ixrac olunan pomidorun ümumi dəyəri 128 milyon ABŞ dollarından çoxdur.

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

## Elektron qaimə-faktura

***ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş mallara (işlərə, xidmətlərə) görə elektron vergi hesab-fakturası ilə bərabər elektron qaimə-faktura da təqdim olunmalıdırmı?***

Vergi Məcəlləsinin 16.1.11-6-cı maddəsinə əsasən, vergi ödəyicisi tərəfindən sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı Vergi Məcəlləsində nəzərdə tutulmuş qaydada qaimə-faktura və ya elektron qaimə-faktura verilməlidir.

«Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 16 dekabr 2016-cı il tarixli 454-VQD nömrəli Qanununun 2-ci maddəsinə əsasən, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və Azərbaycan Respublikası Vergi Məcəlləsinin 218.1.2-ci maddəsində göstərilən şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş (yola salınmış) mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il 1 aprel tarixindən, bütün digər vergi ödəyiciləri tərəfindən 2018-ci il 1 yanvar tarixindən malların (işlərin, xidmətlərin) alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara (malların, işlərin, xidmətlərin sifarişçisinə) elektron qaimə-faktura təqdim edilməlidir.

**Qeyd olunanlara əsasən:**

ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş (yola salınmış) mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il 1 aprel tarixindən malların (işlərin, xidmətlərin) alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara (malların, işlərin, xidmətlərin sifarişçisinə) elektron vergi hesab-fakturası ilə yanaşı, elektron qaimə-faktura da təqdim edilməlidir.

## «ASAN xidmət» mərkəzlərində nağdsız ödəniş imkanı yaradılır

Ölkə Prezidentinin 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi»nin icrası çərçivəsində Maliyyə Bazarlarına Nəzarət Palatası (MBNP) ölkədə maliyyə xidmətlərinin çatdırılması kanallarının inkişaf etdirilməsi, o cümlədən maliyyə xidməti istehlakçılarına daha əlverişli nağdsız ödəniş imkanının yaradılması istiqamətində fəaliyyətini davam etdirir. Palatadan verilən xəbərə görə, həyata keçirilən tədbirlər çərçivəsində artıq Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılmış «ASAN xidmət» mərkəzlərində ödəniş kartları vasitəsilə nağdsız ödənişlərin aparılması imkanı yaradılıb.

MBNP tərəfindən «ASAN xidmət» mərkəzlərində müxtəlif ödəniş həllərinin tətbiqi və görüləcək işlərin koordinasiyası məqsədilə bu ilin avqust ayında Mərkəzi Bankın, «ASAN xidmət» mərkəzlərində fəaliyyət göstərən bankların, həmçinin xidmət mərkəzlərinin də nümayəndələrinin təmsil olunduğu işçi qrup yaradılıb. Birgə fəaliyyət nəticəsində 4 saylı Bakı «ASAN xidmət» mərkəzində və 2 saylı Bakı «ASAN Kommunal Mərkəzi»ndə ödəniş kartları ilə POS-terminal vasitəsilə təqdim olunan xidmətlərə görə nağdsız ödənişlərin aparılması imkanı təmin edilib. Eyni zamanda, 1 saylı Bakı «ASAN xidmət» mərkəzində quraşdırılmış «ASAN ödəniş» terminallarında müvafiq xidmətlər üzrə ödəniş kartları vasitəsilə nağdsız ödənişlər aparıla bilər.

Palata bu istiqamətdə həyata keçiriləcək tədbirlərin davam etdiriləcəyini, digər «ASAN xidmət» mərkəzlərində də nağdsız ödənişlərin aparılması imkanlarının təmin olunacağını bildirib.

# Nağdsız ödənişlərin həcmi genişləndirilir



Nağdsız ödənişlərin stimullaşdırılması ölkə iqtisadiyyatında şəffaflığın artırılması, maliyyə intizamının gücləndirilməsi və vergitutma bazasının genişləndirilməsinə yönəlmiş addımdır. Vəsaitlərin dövriyyəsinin nağdsız yolla aparılması nağd pul çapı, daşınma, saxlanma və təsərrüfat əməliyyatlarına çəkilən xərclərin azalmasına da müsbət təsirini göstərir. Ölkə başçısının imzaladığı fərman və sərəncamlarda vergi, rüsum, icarə haqqı, digər ödənişlərin dövlət qurumlarına birbaşa ödənilməsi yolu ilə bankdankənar nağd qaydada aparılmasının aradan qaldırılması, təsərrüfat subyektlərində nağd şəkildə hesablaşmaların minimuma endirilməsi, inzibati xətalara görə cərimələrin, gömrük ödənişlərinin yalnız bank vasitəsilə toplanmasının təmin edilməsi və bütövlükdə nağdsız ödənişlərin stimullaşdırılması əsas götürülür. Bu sənədlərdən gələn vəzifələrin icrası üçün dövlət qurumlarının ödəniş sistemləri infrastrukturuna inteqrasiyası məqsədilə bir sıra tədbirlər görülür, islahatlar aparılır. Nağdsız dövriyyənin həcminin yüksəldilməsi və ödəniş kartları bazarının inkişaf etdirilməsi istiqamətində islahatların tərkib hissəsi kimi geniş maarifləndirmə, təbliğat işləri mühüm əhəmiyyət kəsb edir.

Kart sahibləri ödəniş kartının üstünlükləri, onun vasitəsilə həyata keçirilən əməliyyatlar, ödəniş kartından istifadə zamanı üzləşə biləcəkləri fırıldaqçılıq hallarına qarşı mübarizə tədbirləri və s. haqqında məlumatlı olmalıdırlar. Bu baxımdan, hazırda kart sahiblərinin nağdsız ödəniş alətlərinə inam və etibarının artırılması prioritet məsələlərdəndir.

«MasterCard» şirkətinin ölkə üzrə meneceri Alper Metic hesab edir ki, nağdsız ödənişlər iqtisadiyyatda canlanma yaradan, iqtisadi aktivliyə stimul verən əsas vasitələrdəndir: «Proqnozlarımıza görə, 2018-ci ildə mobil ödəmələr dünyada pərakəndə ticarətin 30%-ni təşkil edəcək, 2020-ci ildə nağdsız ödənişlər dünya bazarında 30% paya sahib olacaq. «MasterCard»ın müxtəlif ölkələrdə apardığı təhlillər onu deməyə əsas verir ki, nağd pul dövriyyəsi dövlət xərclərini bir neçə dəfə artırır. Bu baxımdan da nağdsız ödənişlər qənaət rejiminə şərait yaradan ən mükəmməl vasitələrdən biridir. Nağdsız dövriyyə iqtisadi effektivliyi təmin etməklə yanaşı, ÜDM-in 1,7-3,6% artmasına səbəb olur. Məsələn, Rusiyada son illərdə kart ödənişləri bazarının 10% artması sayəsində iqtisadiyyatda 1% artım baş verib. Ümumilikdə, nağdsız ödənişlərin təmin olunması dünya üzrə 30 milyon iş yerinin yaradılması deməkdir».

**Banklarda kartlarla aparılan şübhəli əməliyyatların vaxtında aşkar edilərək qarşısının alınması məqsədilə mütəmadi olaraq monitorinqin təşkil edilməsi, bu tip əməliyyatlar üzrə risklərin idarə edilməsi sistemi və kadr potensialı olmalıdır**

«MasterCard»ın meneceri şirkətin Azərbaycanda Mərkəzi Bankla birgə «Nağdsız cəmiyyət» layihəsi icra etdiklərini, layihə başa çatdıqdan sonra nağdsız ödənişlərlə bağlı strateji yol xəritəsinin hazırlanacağını bildirib.

Onu da qeyd edək ki, Mərkəzi Bank ərazi mənsubiyyətindən asılı olmayaraq, bütün hüquqi və fiziki şəxslərin maliyyə xidmətlərinə çıxış imkanlarının artırılması, nağdsız ödəniş alətlərindən istifadənin cəmiyyətdə bir normaya çevrilməsi, iqtisadi dövriyyədə olan nağd pul kütləsinin nağdsız dövriyyəyə cəlb edilməsi, habelə hökumət və özəl qurumların korporativ informasiya sistemlərinin elektron ödəniş sistemlərinə texnoloji inteqrasiyasının tamamlanması istiqamətində həyata keçiriləcək kompleks tədbirləri özündə əks etdirən Dövlət Proqramının layihəsini hökumətə təqdim etmişdir. Proqramın icrası çərçivəsində elektron ödəniş xidmətlərinin infrastruktur imkanlarının artırılması, hüquqi və institusional bazasının gücləndirilməsi, istifadə effektivliyinin yüksəldilməsi, əhali və iqtisadi subyektlərin elektron ödəniş xidmətlərindən daha aktiv istifadəyə cəlb olunması prioritet istiqamətlər kimi qəbul edilmişdir.

Nağdsız əməliyyatlarda fırıldaqçılıq hallarının qarşısının alınması isə insanların inam və etibarının yüksəlməsinə gətirib çıxaran vacib şərtlərdəndir. Bu məsələdə normativ hüquqi bazanın möhkəmləndirilməsi, bank və aidiyyəti qurumların fəaliyyətinin əlaqələndirilməsi kimi tədbirlər həyata keçirilir. Mərkəzi Bank tərəfindən hazırlanmış «Ödəniş kartlarının emissiyası və istifadəsi Qaydaları» qüvvəyə minmişdir. Bu qaydalara əsasən, banklarda kartlarla aparılan şübhəli əməliyyatların vaxtında aşkar edilərək qarşısının alınması məqsədilə mütəmadi olaraq monitorinqin təşkil edilməsi və bu tip əməliyyatlar üzrə risklərin idarə edilməsi sistemi və kadr potensialı olmalıdır. Eyni zamanda, beynəlxalq təcrübə əsasında «Ödəniş kartları ilə fırıldaqçılıq əməliyyatlarının qarşısının alınması üzrə Tövsiyələr» işlənib hazırlanaraq banklara göndərilmişdir. Ödəniş kartları infrastrukturu vasitəsilə aparılan əməliyyatların təhlükəsizliyinin təmin edilməsi və fırıldaqçılığın qarşısının alınması məqsədilə Mərkəzi Bank, banklar, kart-prosessinq mərkəzləri, milli təhlükəsizlik və hüquq-mühafizə orqanları tərəfindən qabaqlayıcı tədbirlərin görülməsi üçün qarşılıqlı əməkdaşlıq əlaqələri də qurulmuşdur. Bu məqsədlə Mərkəzi Bankın, Azərbaycan Banklar Assosiasiyasının, seçilmiş bankların, kart-prosessinq mərkəzlərinin mütəxəssislərindən, milli təhlükəsizlik və hüquq-mühafizə orqanlarının əməkdaşlarından ibarət kartlarla fırıldaqçılıq sahəsində risklərin idarə olunması üzrə İşçi Qrup yaradılmışdır.

Ödəniş sistemlərinə nəzarətin tərkib hissəsi kimi, Mərkəzi Bank tərəfindən mütəmadi monitorinqlər həyata keçirilir. Hər bir banka ödəniş kartları ilə aparılan əməliyyatların sutka ərzində monitorinqinin həyata keçirilməsi xidmətinin yaradılması, bu istiqamətdə digər banklarla, kart-prosessinq mərkəzləri və hüquq-mühafizə orqanları ilə qarşılıqlı əməkdaşlığın təmin edilməsi, ödəniş terminallarının və ödəniş kartlarının EMV (çip) texnologiyalarına tam keçidinin sürətləndirilməsi və maqnit zolaqlı kartların istifadəsinin tədricən məhdudlaşdırılması, kart infrastrukturunun təhlükəsizliyinin «PCI DSS» standartının tələblərinə uyğunlaşdırılması, internet üzərindən həyata keçirilən ödənişlərdə «3D secure» təhlükəsizlik texnologiyasının («Verified by Visa» və «MC SecureCode») tətbiqinə keçidin sürətləndirilməsi, bankomatlarda xüsusi sensorların, həmçinin bankın təhlükəsizlik xidmətinə xəbərdarlıq siqnalı göndərən «antiskimming» qurğularının və müşahidə kamerasının quraşdırılması və digər kartlarla fırıldaqçılıq hallarının aradan qaldırılması tədbirlərinin həyata keçirilməsi tövsiyə edilmişdir.

**Rəşad SADIQOV**

# İqtisadi islahatlar müzakirə olunub

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı Asiya İnkişaf Bankının (AİB) nümayəndə heyətini qəbul edib. Bankın İqtisadi Tədqiqatlar direktoru Edmon Gintinq, iqtisadçı Eymi Hampel-Milagrosa və menecer Əziz Heydərovun daxil olduğu nümayəndə heyətinə ölkədə aparılan iqtisadi islahatlar və strateji yol xəritələrinin monitorinq və qiymətləndirmə nəticələri barədə geniş məlumat verilib.

Qeyd olunub ki, aparılan iqtisadi islahatlar nəticəsində bu gün Azərbaycan Dünya İqtisadi Forumunun «Qlobal rəqabətqabiliyyətlilik hesabatı»nda AİB-ə daxil olan əksər ölkələri geridə qoyur. Bu isə əməkdaşlıqda maraqlı olan beynəlxalq və regional maliyyə institutları ilə əlaqələrdə daha geniş imkanlar açır.

Görüşdə, həmçinin, Asiya İnkişaf Bankının Azərbaycanda Ölkə üzrə Diaqnostik Tədqiqat sənədinin hazırlanması məsələsinə də toxunulub. Müzakirələr zamanı insan kapitalı, məhsuldarlıq, ticarətin inkişafı üzrə islahatlar, ölkənin ortamüddətli inkişaf strategiyası ilə yanaşı, AİB-in Azərbaycan üzrə 2019-2023-cü illər üzrə hazırlanacaq Ölkə üzrə Tərəfdaşlıq Strategiyasının prioritet istiqamətləri də müzakirə edilib.

**FƏXRİYYƏ**

# «Yaşıl kart» beynəlxalq sığorta sistemi

**Hazırda 48 ölkənin daxil olduğu bu sistem avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığortası şəhadətnaməsinin bu sistemin iştirakçıları, yəni üzv ölkələr arasında qarşılıqlı tanınması haqqında sazişdir. Sazişin iştirakçıları olan ölkələrin hər hansı biri tərəfindən verilmiş «Yaşıl kart» sığorta şəhadətnaməsi digər iştirakçı dövlətlərin ərazisində də etibarlı sayılır. «Yaşıl kart» sistemi çərçivəsində vurulan zərərin əvəzinin ödənilməsi məqsədilə sistemə üzv ölkələrin hər birində milli «Yaşıl kart» büroları təsis edilmişdir.**







**«İcbari sığortalar haqqında» Qanuna əsasən, «Yaşıl kart» sığortası məcburidir və bu sistemə daxil olan hər hansı ölkəyə Azərbaycanda qeydiyyatda olan avtonəqliyyatla səfər edən istənilən şəxs bu sığortanı əldə etməlidir**

Azərbaycan «Yaşıl kart» beynəlxalq sığorta sisteminə 2016-cı il yanvarın 1-dən qoşulmuşdur. Ölkəmizdə «Yaşıl kart» bürosunun funksiyalarını İcbari Sığorta Bürosu yerinə yetirir. Büro əcnəbi sürücülərin öz avtonəqliyyat vasitələri ilə səbəb olduğu yol-nəqliyyat hadisələri nəticəsində xəsarət almış və ya əmlakına zərər dəymiş üçüncü şəxslərə vurulan zərərlərin əvəzinin sığorta ödənişi formasında veriləcəyinə təminat verir. Daha sonra hadisə baş verən ölkənin «Yaşıl kart» bürosu hadisəni törətmiş sürücünün mənsub olduğu ölkənin bürosundan ödənilmiş sığorta ödənişi həcmində vəsaiti geri alır.

«Yaşıl kart» sisteminin başlıca təyinatı onun üzvü olan istənilən ölkəyə səfər edən əcnəbi sürücülərin mülki məsuliyyətinin onların mənsub olduğu ölkənin qanunvericiliyinə uyğun qaydada sığortalanması ilə səyahət etdikləri ölkələrdə törətdikləri yol-nəqliyyat hadisələri nəticəsində vurduqları zərərin əvəzinin hadisənin baş verdiyi ölkənin qanunvericiliyinə uyğun qaydada ödənilməsini təmin etməkdən ibarətdir. «İcbari sığortalar haqqında» Qanuna əsasən, «Yaşıl kart» sığortası məcburidir və bu sistemə daxil olan hər hansı ölkəyə Azərbaycanda qeydiyyatda olan avtonəqliyyatla səfər edən istənilən şəxs bu sığortanı əldə etməlidir.

Səfərə çıxmazdan öncə vətəndaşlar İcbari Sığorta Bürosunun müvafiq reyestrinə daxil edilmiş sığorta şirkətlərinə müraciət edərək «Yaşıl kart» sığortasını əldə edə bilərlər. Sistemə daxil olan ölkələrə səfər edən sürücülər Azərbaycanı tərk etmədən öncə bu sığorta əldə edilməyibsə, onu sərhəddə fəaliyyət göstərən sığorta şirkətlərinin nümayəndəliklərindən yerində əldə etməli olacaq.

Bürodan verilən məlumata görə, bu ilin sentyabr ayı ərzində «Yaşıl kart» sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar tərəfindən 3045 saziş bağlanılmışdır. Bunlardan 1719-u Türkiyə və İran İslam Respublikasına, 1235-i Rusiya, Moldova və Ukrayna Respublikasına, 91-i isə «Yaşıl kart» sisteminə daxil olan digər ölkələrə (Belarus və İsrail istisna olmaqla) səfər edən avtonəqliyyat vasitələri ilə bağlı olmuşdur. Beynəlxalq sığorta müqavilələri üzrə sığorta şirkətləri tərəfindən toplanmış sığorta haqları 211.174 manat təşkil etmişdir. Sazişlərin 2445-i minik, 313-ü yük, 267-si qoşqu, 18-i avtobus, 2-si isə motosiklet kateqoriyası üzrə olmuşdur.

Qeyd edək ki, hazırda Azərbaycanda «Yaşıl kart» sığorta növü üzrə İcbari Sığorta Bürosunun iştirakçısı olan 13 sığorta şirkəti fəaliyyət göstərir.

**AYTƏN**

# «ABAD» kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırır

**Azərbaycan Prezidenti İlham Əliyevin 23 sentyabr 2016-cı il tarixli fərmanı ilə «ABAD» (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxs yaradılıb. Fərmana əsasən, «ABAD»ın yaradılmasında məqsəd Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakını təmin etmək, ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaq, əhalinin məşğulluğunun artırılması sahəsində əlavə imkanlar yaratmaqdır.**

***Pilot layihə özünü doğruldur***

«ABAD» publik hüquqi şəxsin direktor müşaviri Elvin Şirinovun sözlərinə görə, artıq bir ildir ki, pilot layihə olaraq regional mərkəzlər vasitəsilə Masallı və Balakən rayonlarında fəaliyyət göstərən «ABAD» ailə təsərrüfatlarına, kiçik və orta sahibkarlara dəstək layihələrinin həyata keçirilməsi, istehsalatda müasir texnoloji istehsal avadanlıqlarından istifadə, marketinq, brendinq və dizayn, maliyyə-mühasibat, hüquqi yardım xidmətlərinin göstərilməsi, istehsal olunan məhsulun daşınmasının və satışının təşkili kimi xidmətlər göstərilir: «1 saylı Masallı regional «ABAD» mərkəzi ilkin mərhələdə 6 ailəyə monoblok-konteynerlər şəklində zəruri istehsal avadanlıqları təqdim edib. Bu avadanlıqlardan üçü cem və mürəbbə, biri pendir, ikisi kolbasa məmulatlarının istehsalı üçün nəzərdə tutulub. Bundan başqa, «ABAD» cənub regionu üzrə arıçılıqla məşğul olan üç ailəyə də dəstək göstərir. Ailə təsərrüfatlarına avadanlıqlardan istifadə, gigiyena və əməyin təhlükəsizliyi ilə bağlı təlimlər keçilib, Masallı «ABAD»çıları üçün «Sehrli meyvələr», «Bal kimi», «Nübar» mürəbbə, «Şərəfə» pendir, «Kəndli», «Bəh-bəh» kolbasa brendləri yaradılıb».

E.Şirinov bildirib ki, ikinci regional «ABAD» mərkəzi Balakən rayonunda fəaliyyətə başlayıb: «Mərkəz ilkin mərhələdə 12 ailəyə zəruri istehsal avadanlıqları təqdim edib. Layihə çərçivəsində ikimərtəbəli inzibati bina inşa edilib, iş otaqları zəruri avadanlıqlarla təchiz olunub. Burada, həmçinin, təqdimat və görüş zalları, laboratoriya da fəaliyyət göstərəcək. Ümumi sahəsi 640 kvadratmetrdən çox olan müxtəlif temperaturlu anbar kompleksi istifadəyə verilib. Balakənli «ABAD»çılar üçün ailə brendləri yaradılıb, onlara zəruri qablaşdırma vasitələri təqdim edilib və ailə təsərrüfatlarının məhsullarının satışı təşkil olunub».

***«ABAD» üçün ailələr necə seçilir...***

Qurumun direktor müşaviri vurğulayıb ki, «ABAD»ın fəaliyyətinin təşkilində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə sıx əməkdaşlıq edildiyini vurğulayıb: «ABAD»la əməkdaşlıq üçün ilk növbədə abad.gov.az saytına daxil olub, «ABAD»çı ol» bölməsində qeydiyyata düşmək lazımdır. Əl işləri dəyərləndirildikdən sonra əlaqə yaradılır, «ABAD»çı ailələr tərəfindən istehsal olunmuş məhsullar «bir pəncərə» sistemi əsasında yoxlanılır və hər bir məhsula müvafiq uyğunluq və gigiyena sertifikatları təqdim edilir. «ABAD»çı ailələrin hazırladığı məhsullar tam təbiidir və bütün zəruri yoxlamalardan keçərək, müvafiq sertifikatlarla işarələnib. Beləliklə, müasir tələblərə cavab verən dizayna və brend adına, uyğunluq və gigiyenik sertifikatlara malik məhsulların satışını həyata keçirmək asanlaşıb. Alıcılara təqdim edilən hər bir məhsulun üzərində onun bizim himayəmiz altında istehsal olunduğunu göstərən «ABAD» leybli yerləşdirilir. Bu, həm də məhsulun yüksək keyfiyyətə malik olduğunun bir göstəricisidir. Hazırladıqları məhsulların özlərinə məxsus brend adı altında satışa çıxarılması ailə təsərrüfatlarını öz işlərini inkişaf etdirməyə, bazara yeni məhsullar təqdim etməyə daha da həvəsləndirir».



***«ABAD» satış mərkəzləri turistlərin ən çox sevdikləri məkana çevrilir***

«ABAD»ın ikinci prioritet istiqaməti dekorativ-tətbiqi xalq sənətkarlığı ilə məşğul olan ailələrin dəstəklənməsidir. Əgər əvvəllər sənətkar ailələri hazırladıqları məhsulların satışı ilə bağlı müəyyən çətinliklərlə qarşılaşırdılarsa, bu gün onların öz əl işlərini «ABAD» sərgi-satış mərkəzləri vasitəsilə reallaşdırmaq imkanları yaranıb.

İndi Azərbaycan əcnəbi turistlərin ən çox ziyarət etdiyi ölkələrdən birinə çevrilib. Respublikamıza səfər edən əcnəbilər vətənlərinə qayıdarkən Azərbaycanı xatırladacaq müəyyən hədiyyələr almaq istəyirlər. E.Şirinovun sözlərinə görə, əvvəllər bazarda təqdim olunan suvenir məhsullarının üzərində Azərbaycan təsvirləri olsa da həmin məhsullar əsasən xarici ölkələrdə, xüsusən də Çində hazırlanırdı: «Belə bir vəziyyətdə dekorativ-tətbiqi xalq sənətkarlığı ilə illərdir məşğul olan, gözəl əl işləri hazırlayan sənətkarlarımız öz məhsullarını sata bilmirdilər. Azərbaycan sənətkarlarının əl işlərinin satışa çıxarıldığı bir mərkəzə ehtiyac var idi. Bu istiqamətdə «İçərişəhər» Dövlət-Tarixi Memarlıq Qoruq İdarəsi ilə əməkdaşlıq çərçivəsində bu il martın 18-də burada «ABAD» sərgi-satış mərkəzi fəaliyyətə başladı. İlkin mərhələdə sərgi-satış mərkəzində 63 sənətkar ailəsinin əl işləri satışa çıxarılsa da, qısa müddətdə «ABAD»a müraciətlərin sayı sürətlə artdı».

Əcnəbi turistlərin təqdim olunan əl işlərinə böyük marağını, əməkdaşlıq üçün müraciət edən sənətkar ailələrinin sayının artmasını nəzərə alaraq, Bakıda turistlərin sıx olduğu daha bir neçə sərgi-satış mərkəzinin yaradılması haqqında qərar qəbul edilib. Növbəti mərhələdə Heydər Əliyev Beynəlxalq Hava Limanının «Duty Free» zonasında və Bakı dəmiryol vağzalında sərgi-satış mərkəzləri istifadəyə verilib. Həmin mərkəzlər vasitəsilə artıq 130 ailənin 1650 adda 5000-dən çox sənət nümunəsi, 9 ailənin isə 40 adda kənd təsərrüfatı məhsulları (cem, mürəbbə və bal) təqdim olunur. Gələcəkdə daha dörd rayonda regional «ABAD» mərkəzlərinin fəaliyyətə başlaması, həmçinin sərgi-satış mərkəzlərinin turistlərin çox səfər etdiyi regionlarda, otellərdə də açılması nəzərə tutulur.

E.Şirinov MDB-dən, ərəb ölkələrindən, Avropa İttifaqından gələn turistlərin təqdim olunan məhsullara çox böyük maraq göstərdiklərini bildirir: «ABAD»çıların maliyyə-mühasibat işləri, vergi məsələlərinin tənzimlənməsi qurum tərəfindən həyata keçirilir və satışdan əldə olunan vəsait hər bir «ABAD»çının bank hesabına köçürülür. Beləliklə, görülən tədbirlər nəticəsində regionlarda yaşayan sənətkarlar öz məhsullarını paytaxtda satışa çıxarmaq, daha çox gəlir qazanmaq imkanı əldə ediblər.

***«ABAD» məhsullarını haradan əldə etmək olar?***

Pilot layihə hələlik Balakən və Masallıda fəaliyyət göstərsə də, dekorativ-tətbiqi xalq sənətkarlığı sahəsində bütün ölkə üzrə müraciətlər qəbul olunur. Bu zaman sənətkar ailəsinin təqdim etdiyi əl işləri dəyərləndirilir. Əmtəə görünüşü olan məhsullar «ABAD» mağazalarında satışa çıxarılır. Bəzi hallarda sənətkar ailələrinin hazırladığı milli suvenirlər tələblərə cavab vermir, bu zaman «ABAD»ın mütəxəssisləri onlara təlim keçir, işlərinin daha keyfiyyətli və zövqlü hazırlanması üçün zəruri dəstək göstərirlər. Beləliklə, «ABAD» ilə əməkdaşlıq edən ailə təkcə gəlirlərini deyil, həm də bilik və bacarıqlarını artırmış olur.

Hazırda «ABAD» tərəfindən dəstəklənən ailə təsərrüfatlarının məhsulları «Bravo» supermarketlər şəbəkəsində satışa çıxarılıb. «Balməkan», «Dənə-dənə» , «Yay səbəti» , «Bağımızın bəhrəsi», «Budaqdan», «Bal kimi», «Meyvə bağı» mürəbbə brendlərini Gənclik Mall» ticarət mərkəzində yerləşən «Bravo» supermarketində və Xaqani küçəsində fəaliyyət göstərən «Bravo ekspress»dən əldə etmək mümkündür.

**Fəxriyyə İKRAMQIZI**

## «ABAD»çılar nə deyir...

• *Quba rayon sakini Gültəkin Əliməmmədova* xalçaçıdır. 10 ildən artıqdır ki, iplərdən xarüqələr yaradan sənətkarın sözlərinə görə, bu sənətin sirlərini nənəsindən öyrənib: «İlk dəfə ilmə atmağı mənə nənəm öyrətdi. Məhz onun sayəsində xalçaçılığın bütün sirlərini öyrəndim və nənəmin vəfatından sonra bu peşəni davam etdirmək qərarına gəldim». Müsahibim xalçaçılıqla yanaşı, toxuculuqla da məşğuldur: «Müxtəlif toxunma oyuncaqlar, bəzək əşyaları hazırlayıram. Ümumiyyətlə, bu sənəti çox sevirəm, iş zamanı hər şeyi unuduram, ruhum dincəlir. Əl işlərimdə milli ornamentlər və təbiət mənzələrinə üstünlük verirəm. Xalçalardan isə Qubanın çeşniləri olan Ağgül, Pirəbədil, Heyratı naxışlarından istifadə etmişəm».
«ABAD»a müraciət edən sənətkarın sözlərinə görə, məqsədi ailə biznesini genişləndirməklə gəlirini artırmaqdır.

• *Paytaxt sakini Nərminə Salayeva* dekorativ-tətbiqi sənətkarlıqla məşğuldur. O, soyuq çinidən istifadə edərək, müxtəlif dekorativ güllər, səbətlər, fiqurlar, o cümlədən nağıl qəhrəmanlarının fiqurlarını hazırlayır: «Bu işi gəlinimlə birgə edirik, müxtəlif rəsm əsərləri çəkir, gildən suvenirlər hazırlayırıq. Soyuq çinini əldə etmək üçün qarğıdalı kraxmalından istifadə edirik. Onun resepti bizim ailəmizin sirri kimi qorunur. Xammalın bir qismini özümüz hazırlayır, digər hissəsini isə alırıq. Əl işlərində daha çox milli obrazları əks etdirməyə üstünlük verirəm».
Ailə biznesini genişləndirmək üçün «ABAD»a müraciət etdiyini qeyd edən sənətkar öz gözləntilərini də gizlətməyib: «Azərbaycanda ilk dəfə bizim ailə soyuq çini ilə məhsul hazırlayır. Düşünürəm ki, «ABAD»ın dəstəyi sahəsində daha geniş bazara çıxış əldə edəcək və öz gəlirlərimizi artıra biləcəyik. Hazırda əl işlərimiz «ABAD» sərgi-satış mərkəzində nümayiş etdirilir».

• *Bakı şəhər sakini Zəka Muradov* çay daşlarından müxtəlif suvenirlər hazırlayır. Sənətkar ailəsində dünyaya göz açan Zəkanın sözlərinə görə, o, dekorativ-tətbiqi sənətin bu istiqaməti ilə təsadüfən maraqlanmağa başlayıb: «Yay aylarında adətən İsmayıllı rayonunda çay kənarında istirahət edirdim. Gəzintilərdən birində selin gətirdiyi daşların təsadüfi düzülüş forması diqqətimi cəlb etdi. Elə bil təbiət özü bir insan təsviri yaratmışdı. Bu, məni daşlardan müxtəlif əl işləri hazırlamağa həvəsləndirdi».
Müsahibim deyir ki, bu sənətin özəlliyi istifadə olunan daşların yonulmamasıdır: «Topladığın daşları yonub istədiyin formaya sala bilmirsən. Mütləq təxəyyülündə formalaşdırdığın təsvirə uyğun daş tapmalısan, onun əsasında bir süjet qurmalısan. Əl işlərimdə çay yataqlarından və dəniz sahillərindən topladığım daşlardan istifadə edirəm».

## BİR CÜMLƏ - BİR XƏBƏR

Oktyabrın 30-da Azərbaycan paytaxtında Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin rəsmi açılış mərasimi keçiriləcək.

Belarus iş adamlarından ibarət nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində oktyabrın 17-də Bakıda Azərbaycan-Belarus biznes-forumu işə başlayacaq.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ölkənin aparıcı universitetlərində uğurlu iqtisadi islahatlara həsr olunan ictimai mühazirələrin təşkilinə start verib.

Fransanın Belfort şəhərində «Alstom Transportation S.A.» şirkətinin «Azərbaycan Dəmir Yolları» QSC üçün istehsal etdiyi birinci Prima M4 sərnişin lokomotivinin təqdimat mərasimi keçirilib.

Gürcüstanın xarici işlər naziri Mixeil Canelidze jurnalistlərə açıqlamasında bildirib ki, hazırda GUAM ölkələri arasında azad iqtisadi zonanın yaradılması ilə bağlı ciddi danışıqlar gedir.

Oktyabrın 19-20-də Bakıda İqtisadiyyat Nazirliyinin dəstəyi və AZPROMO-nun təşkilatçılığı ilə Azərbaycan-Körfəz Dövlətlərinin Əməkdaşlıq Şurasının üzv ölkələrinin biznes-forumu keçiriləcək.

# Ölkəmiz əmək bazarının səmərəliliyi üzrə öncül yerlərdə qərarlaşıb

Azərbaycanda son illərdə tətbiq olunan əmək münasibətlərinin elektron qeydiyyatı sistemi əmək bazarı iştirakçılarının hüquq və mənafelərinin dolğun şəkildə təminatında, əmək bazarının tənzimlənməsi prosesində innovativ yanaşmalardan irəli gələn səmərəli vasitə olmaqla, dünyanın qabaqcıl təcrübələri sırasındadır. Ölkəmizdə sosial-iqtisadi məsələlərin həllində sosial dialoqun gücləndirilməsi, sosial və iqtisadi məsələlər üzrə üçtərəfli Komissiyanın yaradılması, işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, aktiv əmək bazarı proqramlarının genişləndirilməsi üçün mühüm önəm kəsb edən «İşsizlikdən sığorta haqqında» Qanunun qəbulu, peşə standartlarının hazırlanıb istifadəyə verilməsi əmək bazarının inkişafına stimul yaradan tədbirlərdəndir.

**2016-cı ilin sentyabr ayında Azərbaycan Hökuməti ilə Beynəlxalq Əmək Təşkilatı (BƏT) arasında 2016-2020-ci illər üçün əməkdaşlıq prioritetlərini müəyyən edən ikinci «Layiqli əmək üzrə ölkə Proqramı» imzalanıb və hazırda uğurla icra olunur. Bu ilin iyun ayında isə Azərbaycan BƏT-in rəhbər orqanına üzv seçilərək, bu mötəbər beynəlxalq qurumun siyasi qərarlarının qəbulunda iştirak hüququ qazanıb**

2016-cı ilin sentyabr ayında Azərbaycan Hökuməti ilə Beynəlxalq Əmək Təşkilatı (BƏT) arasında 2016-2020-ci illər üçün əməkdaşlıq prioritetlərini müəyyən edən ikinci «Layiqli əmək üzrə ölkə Proqramı» imzalanıb və hazırda uğurla icra olunur. Bu ilin iyun ayında isə Azərbaycan BƏT-in rəhbər orqanına üzv seçilərək, bu mötəbər beynəlxalq qurumun siyasi qərarlarının qəbulunda iştirak hüququ qazanıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilir ki, Azərbaycanda dayanıqlı iqtisadi inkişafın təmin olunması şəraitində əmək bazarının inkişafına yönələn islahatlar ölkəmizin bu sahədə də reytinqinin getdikcə əhəmiyyətli şəkildə artmasına imkan verib. Dünya İqtisadi Forumunun «2017-2018 Qlobal Rəqabətlilik Hesabatı»nda iki pillə yüksələrək 137 ölkə arasında 35-ci yerdə qərarlaşan Azərbaycanın əmək bazarının səmərəliliyi üzrə 9 pillə irəliləyərək 17-ci yeri tutması bunu bir daha təsdiq edir. Bununla da ölkəmiz hesabatda bu sahə üzrə əksini tapan sıralamada digər MDB ölkələrindən, eyni zamanda İsrail, Fransa, İsveç, Belçika, Avstriya, Qətər, Yaponiya, İspaniya, İtaliya, Finlandiya, Latviya, Çin, Malayziya və digər ölkələrdən öndə qərarlaşıb. Ötən il açıqlanmış «2016-2017 Qlobal Rəqabətlilik Hesabatı»nda ölkəmiz əmək bazarının səmərəliliyi göstəricisi üzrə əvvəlki ilə dair hesabatla müqayisədə 3 pillə irəliləmişdisə, yeni hesabatda 7 mümkün xaldan 5-ni əldə etməklə 9 pillə irəliləyişə nail olub. Bu isə ölkədə həyata keçirilən kompleks tədbirlərin daha yüksək effektivliyə malik olduğundan xəbər verir. Hesabatda əmək bazarının səmərəliliyi iki qrup üzrə («əmək bazarının çevikliyi» və «bacarıqlardan səmərəli istifadə») göstəricilərin qiymətləndirilməsi əsasında ölçülüb ki, bu qruplardan hər biri ümumi nəticənin müəyyən edilməsində 50 faiz səviyyəsində təsirə malikdir.

«Əmək bazarının çevikliyi» üzrə 5 indikatora (işçi-işəgötürən münasibətlərində əməkdaşlıq, əmək haqlarının müəyyən olunmasında elastiklik, işə qəbul və işdən azad etmə prosedurları, ixtisar xərcləri, vergitutmanın əməyin stimullaşdırılmasına təsiri) dair göstəricilər qeyd olunub və ümumi nəticə kimi, Azərbaycan əmək bazarının çevikliyi üzrə 4,9 xalla 29-cu yerdə qərarlaşıb ki, bu da ötənilki hesabatla müqayisədə 16 pillə yüksəkdir. Hesabatda «Bacarıqlardan səmərəli istifadə» üzrə 5 indikatora (ödəmə və məhsuldarlıq, peşəkar idarəetməyə əsaslanma, ölkədə insan kapitalının saxlanılma potensialı, ölkəyə insan kapitalının cəlb edilmə potensialı, əmək qabiliyyətli əhalidə qadınların iştirakı səviyyəsi) aid göstəricilər də əksini tapıb. Azərbaycan əmək bazarında «Bacarıqlardan səmərəli istifadə» göstəricisi üzrə İsrail, İrlandiya, Belçika, Avstriya, Fransa və s. kimi inkişaf etmiş ölkələrdən öndə olmaqla, 5,1 xalla dünya üzrə 16-cı pillədə yer alıb və ötənilki hesabatdakı mövqeyini 7 pillə yaxşılaşdırıb.

**AYTƏN**



# Güzəştli kreditlər sahibkarlığın inkişafına rəvac verir

İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu sahibkarlığın güzəştli kreditləşdirilməsi məsələlərinə dair işgüzar forum keçirib.

Nazirlikdən verilən məlumata görə, tədbir çərçivəsində Abşeron rayonunun iqtisadi potensialının reallaşdırılması məqsədilə prioritet hesab olunan ixtisaslaşdırılmış «yaşıl market»in, müasir istixana kompleksinin, zeytunçuluq və badamçılıq təsərrüfatlarının, tara istehsalı müəssisəsinin yaradılması üzrə nümunəvi investisiya layihələrinin təqdimatı olub. Tədbir iştirakçılarının nəzərinə kiçik həcmli investisiya layihələrinin ümumi dəyərinin 100%-dək hissəsinin dövlətin güzəştli kreditləri hesabına maliyyələşdiriləcəyi çatdırılıb, sahibkarlara nümunəvi layihələr və metodiki materiallar paylanıb. Forum çərçivəsində «startap» layihələrinin mahiyyəti və dövlətin güzəştli kreditləri hesabına dəstəklənməsinə dair təqdimat keçirilib və belə layihələrin güzəştli qaydada maliyyələşdiriləcəyi qeyd edilib.

İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev tədbir iştirakçılarına güzəştli kreditlər hesabına regionlarda, eləcə də Bakı şəhəri və onun qəsəbələrində həyata keçirilən layihələr barədə məlumat verib. Bildirib ki, bu ilin əvvəlindən 1270 sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə ayrılan 96,5 milyon manat həcmində güzəştli kreditlərdən istifadə etməklə 3900-dək yeni iş yerinin yaradılması mümkün olacaq.

**Bu ilin əvvəlindən 1270 sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə ayrılan 96,5 milyon manat həcmində güzəştli kreditlərdən istifadə etməklə 3900-dək yeni iş yerinin yaradılması mümkün olacaq**

İşgüzar forum çərçivəsində Abşeron iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlara 5,6 milyon manat güzəştli kredit verilib. Nəzərdə tutulan layihələrin reallaşdırılması nəticəsində 160-dan çox yeni iş yerinin açılması mümkün olacaq. Sonra Abşeron rayonunda tikinti materiallarının istehsalı müəssisəsinə və müasir istixana kompleksinə baxış keçirilib. Qeyd edək ki, Abşeron rayonu və Bakı qəsəbələrində indiyədək ümumilikdə 37 müasir istixana kompleksinin yaradılmasına 116,3 milyon manat güzəştli kredit ayrılıb və 32 istixana artıq istifadəyə verilib.

İqtisadçı ekspert Fikrət Yusifovun sözlərinə görə, son illər Azərbaycan hökumətinin ölkədə sahibkarlığın inkişafı üçün atdığı addımlardan biri də kiçik və orta sahibkarlığın inkişafı məqsədilə onların reallaşdırdıqları layihələrə güzəştli kreditlərin verilməsidir: «Lakin çox təəssüf ki, ölkənin bank sistemi dövlətin nümayiş etdirdiyi bu nümunədən hələ lazımi nəticə çıxara bilmir. Bu gün Azərbaycan hökumətinin apardığı iqtisadi islahatların qarşısında dayanan ən böyük maneə bank sistemindəki vəziyyətdir. Bunu Prezident İlham Əliyev son müşavirələrin birində çox aydın ifadə etmişdir. Ölkə başçısı çıxışında haqlı olaraq «Bizim iqtisadiyyatımıza ən böyük zərbəni banklar vururlar», - demişdir. Ona görə də bu gün hökumətin və Mərkəzi Bankın ən ümdə vəzifələrindən biri qısa zaman ərzində ölkənin bank sektorunun yenidən qurulmasına aparan sürətli islahatlar həyata keçirməkdir».

F.Yusifov qeyd etmişdir ki, islahatlar nəticə etibarilə ümumi inkişafa nail olmaq iqtisadiyyatın pul təminatına yol açmalıdır: «Bu gün Azərbaycanda iqtisadiyyatın pul təminatı 15% ətrafındadır. Bu göstərici inkişaf etmiş ölkələrdə 100, 150 və bəzən 200%-i ötür. Rusiya və Qazaxıstan kimi bizimlə eyni məkanda olan neft ölkələrində isə bu göstərici 50% civarındadır».

**F. İKRAMQIZI**

## ELAN

Cari ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər (aylıq abunə haqqı, aparılmış hər əməliyyata görə ödəniş) olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar suallarınız yaranarsa, **Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə**, www.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

VERGİLƏR NAZİRLİYİ

## 2017-ci ilin oktyabr ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2017-ci ilin sentyabr ayına görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi

**cari ilin oktyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim olunmuş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş verginin bəyannaməsi cari ilin oktyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**2017-ci ilin 3-cü rübünə görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Sadələşdirilmiş verginin bəyannaməsi və
- Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi **cari ilin oktyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və rüb üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.
- Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla) **cari ilin oktyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və sentyabr ayı üzrə hesablanmış vergi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ilin **yanvar ayının 31-dən gec** olmayaraq təqdim edirlər).
- Xüsusi notariusların gəlir vergisi bəyannaməsi **cari ilin oktyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və sentyabr ayı üzrə hesablanmış gəlir vergisi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.
- Dövlət rüsumu haqqında hesabat **cari ilin oktyabr ayının 20-dək** vergi orqanına təqdim edilməlidir; notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək 2 bank günü, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu 1 ay, digər dövlət rüsumları isə tutulduqdan sonra 1 bank günü ərzində dövlət büdcəsinə köçürülməlidir.

**Gəlir və mənfəət vergisi ödəyiciləri tərəfindən**

2017-ci ilin 3-cü rübü üzrə hesablanmış cari ödəmələr oktyabr ayının 16-dan gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

YADDAŞ

# Şadlıq evi, restoran və digər ictimai iaşə obyektlərinin sahiblərinin nəzərinə!

Azərbaycan Respublikası Vergilər Nazirlyinin 07.08.2017-ci il tarixli əmri ilə «Şadlıq evlərində, restoranlarda və digər ictimai iaşə obyektlərində musiqi, əyləncə və digər oxşar fəaliyyət, habelə fərdi foto, audio-video xidmətlərinin göstərilməsinə görə qeydiyyatın aparılması Qaydaları» təsdiq edilmişdir. Qaydalara əsasən, şadlıq evi, restoran və digər ictimai iaşə obyektlərində musiqi, əyləncə və digər oxşar fəaliyyət, habelə fərdi foto, audio-video xidmətləri göstərən şəxslərin «Qeydiyyatı kitabı»nın tətbiqi nəzərdə tutulmuşdur.

«Qeydiyyat kitabı»nın tətbiqinin məqsədi ictimai iaşə obyektlərində musiqi, əyləncə və digər oxşar fəaliyyət, habelə fərdi foto, audio-video xidmətlərin göstərilməsi fəaliyyəti ilə məşğul olan şəxslərin gəlirlərinin uçotunun düzgün aparılmasının, onların fəaliyyətlərinə nəzarətin təşkilindən ibarətdir.

Nəzərinizə çatdırırıq ki, ictimai iaşə obyektində aşağıda göstərilən fəaliyyətlərdən hər hansı biri olduqda, həmin obyekt «Qeydiyyat kitabı» ilə təmin olunmalıdır:

- müğənnilik və ya ansambl (qrup) formasında musiqiçilik fəaliyyəti;
- fərdi qaydada həyata keçirilən aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət;
- fərdi foto, audio-video xidmətləri sahəsində fəaliyyət.

İctimai iaşə obyektlərinin sahibləri «Qeydiyyat kitabı»nı fəaliyyət göstərdiyi ərazinin vergi orqanına müraciət etməklə əldə edə bilərlər. «Qeydiyyat kitabı» vergi orqanı tərəfindən nömrələnmiş və qaytanlanmış qaydada, möhürlə təsdiq olunaraq uçotu aparılmaqla vergi ödəyicilərinə ödənişsiz təqdim edilir.

İctimai iaşə obyektlərinin sahibləri:

- «Qeydiyyat kitabı»nda müvafiq qeydləri yuxarıda göstərilən fəaliyyət növləri ilə məşğul olan şəxslərin çıxışına (ifasına), xidmətlərin göstərilməsinə başlamazdan əvvəl aparılmasını;
- «Qeydiyyat kitabı»nda qeyd olunan məlumatların hər ay başa çatdıqdan sonra növbəti ayın 10-dək aşağıda göstərilən formada vergi orqanına təqdim edilməsini təmin etməlidirlər.

İctimai iaşə obyektlərinin sahibləri «Qeydiyyat kitabı»nın düzgün işlənilməsinə, təmiz və səliqəli saxlanılmasına (vərəqlərin əzilməməsi, cırılmaması, yazıların qaralanmaması və ya pozulmaması), kitabda qeyd olunan məlumatların vergi orqanına vaxtında təqdim edilməsinə görə məsuliyyət daşıyırlar.

«Qeydiyyat kitabı»ndakı məlumatlar nəzərdə tutulmuş müddətdə vergi orqanına təqdim olunmadıqda və ya məlumatların düzgün tərtib olunmadığı aşkar edildikdə, həmin sahibkar riskli vergi ödəyicisi kimi qiymətləndirilməklə onun fəaliyyəti vergi orqanı tərəfindən xüsusi nəzarətə alınaraq nəzarət tədbirləri həyata keçiriləcəkdir.

**«Qeydiyyat kitabı»nda aparılan məlumatlar əsasında hər ay vergi orqanına təqdim edilməli məlumat forması**

| s/s | Təsərrüfat subyektində (obyektində) «Qeydiyyat kitabı» tətbiq olunan vergi ödəyicisinin | | | | | Musiqi, əyləncə və digər oxşar fəaliyyət, habelə fərdi foto, audio-video xidmətləri göstərən şəxsin | | | Göstərilən xidmətin növü | Çıxış edilən tarix | Çıxışın başlandığı və qurtardığı vaxt | Xidmət göstərən şəxslərə ödənilmiş pulun məbləği | Xidmət göstərilən dövrə aid sətir verginin ödənilməsi haqqında qəbz (var/yox) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Uçotda olduğu vergi orqanı | VÖEN-i | Adı | Obyektin | | Uçotda olduğu vergi orqanı | A.S.A | VÖEN (olmadıqda - FİN) | | | | | |
| | | | | adı | kodu | | | | | | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |

# Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı:

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## Avropa İttifaqının vergi islahatları ilə bağlı tezisləri açıqlanıb

Fransa Prezidenti Emmanuel Makron son çıxışlarının birində Avropa İttifaqında (Aİ) vergi islahatlarının keçirilməsi ilə bağlı öz təkliflərini irəli sürmüşdür. E.Makronun mövqeyinə görə, Aİ iqlim dəyişmələri və atmosferin çirklənməsi ilə bağlı öz səylərini ikiqat artırmalı, vergitutma sahəsində təsirli addımlar atmalı və qiymətqoymanın başqa mexanizmlərini tətbiq etməlidir. «Avropa bu keçid dövründə maliyyə, mənzil, sənaye, kənd təsərrüfatı sahələrinə investisiyaların cəlb olunmasına, eləcə də karbon qazına ədalətli qiymət müəyyənləşdirməklə öz sərhədlərinin hüdudları daxilində karbon qazı emissiyaları üçün əhəmiyyətli dərəcədə minimal qiymət qoymaqla istehalçılar və rəqiblər arasında bərabər oyun meydanı təmin olunmasına şərait yaratmalıdır», - Prezidentin nitqinin xülasəsində qeyd edilmişdir.

E.Makron, həmçinin, internet şirkətlərinin vergi məqsədilə yerləşdikləri ərazidəki gəlirlərə görə deyil, müəyyən bir ölkədə yaratdıqları dəyərlərə görə vergiyə cəlb olunmasının zəruriliyini vurğulamışdır. «Avropa rəqəmsal transformasiyada ədaləti və inamı təmin etməli, vergi sistemlərinə yenidən nəzər salmalı və əsas platformaları nizamlamalıdır».

«Biz bütün Avropa İttifaqı üzrə sosial və vergi modellərimizi tədricən yaxınlaşdıracaq meyarlar müəyyənləşdirməklə mövqelərin birləşdirilməsini stimullaşdırmalıyıq. Vergitutmaya gəldikdə, korporativ vergi dərəcəsi üçün «dəhliz» müəyyənləşdirməliyik», - xülasədə qeyd edilmişdir.

Fransa Prezidenti təklif etmişdir ki, korporativ verginin uyğunlaşdırılmasına razılıq verməkdən imtina etmiş üzv ölkələrə Aİ həmrəyliyi vasitələrinə çıxış imkanı verilsin.

## İrlandiya vətəndaşlarının 87%-i zənginlik vergisini dəstəkləyir

Taxback.com saytı bütün ölkə üzrə 800 nəfər vergi ödəyicisi arasında zənginlik vergisinin tətbiqinə münasibəti öyrənmək üçün rəy sorğusu keçirmişdir. Aydın olmuşdur ki, irlandiyalıların az qala onda doqquzu dövlət xəzinəsinin doldurulması üçün belə bir verginin tətbiq olunmasını alqışlayır.

İndiyədək ölkədə zənginlik mərkəzləşdirilmişdi, təmiz sərvətin 72,2 faizi əhalinin 20 faizinin əlində cəmləşmişdir. Bu, orta Avropa göstəricisindən (67,6 faiz) çoxdur. «Biz 2018-ci ilin büdcəsinin elan edilməsi ərəfəsində sorğu keçirməyi qərara aldıq. Hamımıza bizi nə gözlədiyini bilmək maraqlıdır, - sorğunu keçirən saytın vergilər üzrə meneceri Barri Flanqan demişdir. - Zənginlik vergisi ilə bağlı siyasətçilər arasında müzakirələr aparılır. Bəziləri bunu dəstəkləyir, elələri də var ki, bunun investisiyaların və ixtisaslı işçi qüvvəsinin cəlb edilməsinə mane olacağına əmindir».

Qeyd edilmişdir ki, bütün bunlara baxmayaraq, rəyi soruşulmuş vətəndaşların 87 faizinin yekdilliyini görməzliyə vurmaq da çətindir. Bu sahədə fikir fərqliliyi yalnız zənginlik üçün həddin müəyyənləşdirilməsindədir.

## İran körfəzi ölkələri vergi yükünü artırır

Neft gəlirlərinin azalmasından ziyana düşən İran körfəzi ölkələri həmişə vergi dərəcələrinin aşağı olması statusu ilə fərqlənmiş regionda gələn ildən əlavə dəyər vergisi (ƏDV) tətbiq etməyə başlayacaqlar. Gözlənildiyinə görə, bu addımın atılması qiymətlərin qalxmasına səbəb olacaq və bütün sakinlər, xüsusilə də əməkhaqqı aşağı olan vətəndaşlar üçün iqtisadi qayğılara yol açacaq.

Artıq oktyabr ayının 1-dən Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) tütün məhsullarının qiymətini ikiqat, alkoqolsuz içkilərin qiymətini isə 50 faiz bahalaşdırmışdır. Bundan əlavə, BƏƏ və Səudiyyə Ərəbistanı hökumətlərindən 2018-ci ilin başlanğıcından ƏDV tətbiq ediləcəyi bildirilmişdir. İran körfəzinin digər ölkələri - Bəhreyn, Küveyt, Oman və Qətər isə növbəti ildə bu təcrübəni davam etdirməyi planlaşdırır.

Xatırladaq ki, İran körfəzi ölkələri on illər boyunca səxavətli sosial təminat sistemi ilə fərqlənirdilər. İndi bu ölkələrin əhalisi ƏDV, mal və xidmətlərdən istehlak vergisi və digər yığımlar ödəmək məcburiyyəti ilə üz-üzə gəlmişdir.

«ƏDV tətbiq etmək zərurəti regionun aşağı vergi statusuna son qoyacaq. Lakin insanlar əmin olmalıdırlar ki, sosial ədalət mövcuddur, vergidən əldə edilmiş vəsaitlər inkişaf layihələrinə yönəldiləcək və korrupsiya aradan qaldırılacaq», - «Cluttons Dubai» qrupunun baş analitiki Feysal Durrani bildirmişdir.

## Niderlandda qumar oyunlarından tutulan vergi artırılacaq

Gələn ildən bu ölkədə qumar oyunlarına qoyulan vergi müvəqqəti olaraq oyun müəssisələrinin məcmu gəlirlərinin 29 faizindən 30,1 faizinə qədər artırılacaq. Vergi dərəcəsinin artımı 2018-ci ilin iyulundan 2019-cu ilin yanvarınadək tədricən reallaşdırılacaq.

Bununla belə, qumar oyunları üçün verginin dərəcəsi oyun fəaliyyəti ilə bağlı qanun qüvvəyə minəndən altı ay sonra yenidən 29 faizə salınacaq. Yeni qanun oyun avtomatlarının, kazinoların və onlayn qumar oyunlarının bütün formalarını əhatə edəcək.

Çoxdan gözlənilən bu qanun Niderlandda beynəlxalq operatorların üzünə qapı açacaq. Ancaq nə qədər ki, yeni qanun qüvvəyə minməyib, Ali Məhkəmənin qərarı ilə hökumətin lisenziya almamış və dövlətə heç bir vergi ödəməyən oyun biznesi operatorlarına maliyyə sanksiyaları tətbiq etmək ixtiyarı var. İndiyədək bir sıra məşhur operatorlar iri məbləğlərdə cərimə ödəməli olmuşlar.

## Almaniyada əmək və gəlir vergisinin dərəcələri aşağı salına bilər



İqtisadçılar yeni qurulacaq koalisiya hökumətini təkidlə mövcud izafi maliyyə hesabına bəzi vergiləri, xüsusilə də əmək vergisini aşağa salmağa çağırmışdır. Almaniyanın aparıcı iqtisadi institutlarının irəli sürdükləri əhatəli proqnoza əsasən, iqtisadi artım davam etdiyinə görə qarşıdakı iki ildə vergi daxilolmalarının səviyyəsində az dəyişiklik olacaq. 2019-cu ildə indiki vergi siyasətini davam etdirməklə büdcədə 44 milyard avro profisit əldə etmək planlaşdırılır. Proqnozda bildirilir ki, bu amil ölkədə vergi yükünü azaltmağa şərait yaradır.

«Əmək gəlirlərinə yığımlar şəklində qoyulan yüksək vergi yükünü, xüsusən də birbaşa vergi daxilolmalarının kəskin şəkildə artdığını nəzərə alaraq, əsas diqqət gəlir vergisinin dolayı dərəcəsi üzərinə cəmləşdirilməlidir», - Kil dünya iqtisadiyyatı institutunun sentyabrın 28-də yaydığı proqnozda bildirilir.

Bu, iqtisadçıların Almaniya hökumətinə artan izafi maliyyə fonunda vergi yükünü yüngülləşdirmək barədə ilk müraciəti deyil. 2017-ci ildə Almaniyanın beş iqtisadi institutunun hazırladığı proqnozda göstərilmişdi ki, ümumi daxili məhsula nisbətdə vergi daxilolmaları 40 faizdən artıqdır, əgər hökumət vergiləri azaltmasa, bu nisbət daha da böyüyəcək.

«Artıq elə bir vaxt gəlib çatmışdır ki, iqtisadi siyasət uzunmüddətli perspektivə yönəldilir və vergi yükünün artması məhdudlaşdırılır», - açıqlamada bildirilmişdir.

Almaniya kansleri Angela Merkelin rəhbərlik etdiyi və sonuncu parlament seçkiləri zamanı daha çox səs toplamış Xristian Demokratik İttifaqı (XTİ) seçkiqabağı manifestində vergilərin ildə 15 milyard avro aşağı salınacağı vədini vermişdi. Bundan əlavə, XTİ öz üzərinə hazırkı 42 faizlik dərəcə ilə gəlir vergisi tutmaq üçün müəyyənləşdirilmiş həddin məbləğini 60.000 avroya qaldırmağı, həmrəylik vergisinin ləğv edilməsini, eləcə də tədqiqatlara və işlənmələrə çəkilən xərclər üçün vergi güzəştlərinin verilməsi öhdəliyini götürmüşdü. Lakin indiki halda bu partiya təkbaşına qərar çıxara bilməyəcək, vergi sahəsində hər hansı islahat yeni yaranacaq koalisiya hökumətinin birgə qərarına əsasən tətbiq oluna bilər. Qeyd edək ki, yeni hökuməti formalaşdırmaq üçün XDİ-nin iqtisadi məsələlərdə liberal mövqeyə malik Azad Demokratik Partiya və «Yaşıllar» Partiyası ilə koalisiya yaradacağı gözlənilir.

Hökuməti təşkil edəcək hər üç tərəfin vergi sahəsində öz fərqli ideyaları var. XDİ maliyyə konservativizminin tərəfdarıdır və vergilərin tədricən azaldılmasını istəyir. Azad Demokratik Partiya hesab edir ki, izafi maliyyənin bəhrəsini götürməyin vaxtı çoxdan yetişmişdir. Bu partiya vergi siyasətinə əsaslı şəkildə yenidən baxılmasını təklif etmişdir. Azad demokratların mövqeyinə görə, 2022-ci ildə vergi daxilolmalarının 110 milyard avroya yüksəlməsi gözlənilir. Partiya tərəfindən vergi güzəştlərinin də ən azı 30 milyard avro həcmində azaldılması təklif olunmuşdur. «Yaşıllar» Partiyası isə qazancı aşağı olan şəxslər üçün gəlir vergisinin daha proqressiv sisteminin tətbiq olunmasının tərəfdarı kimi çıxış edir. Partiyanın vergi platformasında kapitalın artımının şəxsi gəlir kimi vergiyə cəlb olunması təklif edilmiş, maliyyə əməliyyatlarına vergi qoyulması fikri dəstəklənmiş və enerji sahəsindən karbon qazı emissiyalarının həcminə uyğun şəkildə vergi tutmaq fikri irəli sürülmüşdür.

## «AmCham EU» yeni vergi mexanizmlərinin əleyhinədir

Avropa İttifaqında Amerika Ticarət Palatası (AmCham EU) rəqəmsal iqtisadiyyat üçün yeni vergi mexanizmlərinin tətbiqi ilə bağlı verilmiş təkliflərdən narahat olduğunu bildirmişdir. Avropa Komissiyasının Vergilər və gömrük ittifaqı üzrə Baş direktorluğu sentyabrın 21-də «Vahid rəqəmsal bazar üçün Avropa İttifaqında ədalətli və səmərəli vergi sistemi» adlı tədbirlər planını qəbul etmişdir. Plana əsasən, təklif olunan qanun layihəsinin 2018-ci ilin yazında təqdim ediləcəyi gözlənilir.

Aİ-nin iqtisadi, maliyyə, vergi və gömrük məsələləri üzrə komissarı Pyer Moskoviçi Avropa Parlamentindəki çıxışında demişdir: «Rəqəmsal şirkətlər hətta fiziki cəhətdən Avropa İttifaqında olmasalar belə, milyonlarla istifadəçidən böyük gəlirlər götürürlər. Biz hamıya bərabər oyun şəraiti verən meydan yaratmaq istəyirik ki, birlikdə fəaliyyət göstərən şirkətlərin hamısı harada işləmələrindən - internet üzərindən və ya şüşədən, kərpicdən tikilmiş ofis üzərindən işləmələrindən asılı olmayaraq, təmiz rəqabət aparsınlar».

Təklif olunan variantlara verginin gəlir əvəzinə dövriyyədən tutulması, internetdəki reklam yığımları və ya rəqəmsal müəssisəyə vergi ödənişindən vergi daxildir. «AmCham EU» xəbərdarlıq etmişdir ki, dövriyyədən vergi (və ya «bərabərləşdirmə») «şirkətlərin investisiya və təkrar investisiya qoymaq üçün gəlirlərini əhəmiyyətli şəkildə azalda bilər ki, bu da Aİ ölkələrinin iqtisadi inkişafına mənfi təsir göstərər». Palata tərəfindən yayılmış açıqlamada qeyd edilmişdir: «Bərabərləşdirmə üçün yığımın (və ya dövriyyədən digər ixtiyari verginin) qəbul edilməsi Aİ-nin investisiya cəlbediciliyinə ziyan vura bilər».

krossvord



**Yuxarıdan aşağı:** 1.Səlcuqlar dövrünə aid irsi rütbə. Şəmkir rayonunda kənd; 2.Gəmi və təyyarədə sükan; 3.Üz tərəfində burulmuş xovları olan üst paltarlıq yun parça; 4.Almaniyada çay; 5.İt cinsi; 6.Pul vahidi; 9.Azərbaycan müğənnisi, bəstəkarı. Tanınmış xanəndə və pedaqoqun adı; 13.Nigeriyanın cənub-şərqində xalq. Tərcümədə «meşə sakinləri» mənasını verir; 15.Təbii ftoridlər sinfindən nadir mineral. Emal və şüşə istehsalında istifadə olunur; 16.İnsanın bədənində olan sümüklərin məcmusu; 17.Ancaq mikroskopla görünə bilən birhüceyrəli orqanizm, bakteriya; 18.Yenidən, bir daha; 20.Subtropik yerlərdə bitən həmişəyaşıl sitrus ağacı və bu ağacın yumurtaşəkilli turşməzə, sarı meyvəsi; 21.İspan rəssamı. Romantizm dövrünün ən parlaq nümayəndəsi.

**Soldan sağa:** 1.Rusiya Federasiyasının Krasnodar diyarında şəhər; 5.Kamboca yaxınlığında, Siam körfəzində ada; 7.Fizikanın bölməsi; 8.Avropa qitəsində göl; 10.Rəngarəng, ala-bəzək; 11.İtaliyanın 1948-ci il Konstitusiyası ilə qismən regional muxtariyyət verilmiş 20 regionundan biri; 12.Azərbaycanın bariton səsli opera müğənnisi, əməkdar artist. Rusiyanın Dövlət Akademik Böyük Teatrın ilk azərbaycanlı solistinin adı; 14.Ağ buğda unundan bişirilən kökə; 19.Uzunqanadkimilər dəstəsinə aid yeganə quş fəsiləsi. Bu fəsiləyə mənsub quşlar arxaya uça bilir; 21.Alıcıya göndərilən və ya buraxılan malların adı, növü, miqdarı, qiyməti yazılmış siyahını göstərən sənəd; 22.Tibet, Monqolustan və Buryatiyada budda rahibi; 23.Avtomobil markası; 24.Min kiloqram; 25.1704-cü ildən Böyük Britaniyaya məxsus Pireney yarımadası sahilində yerləşən ərazi.



İspan rəssamın ən tanınan rəsmlərdən biri: *«Çətir». 1777-ci il. Prado muzeyi. İspaniya, Madrid*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Ruhani; 2.Formula; 3.Eridu; 4.Taenqa; 5.Panda; 6.Yanvar; 9.Reno; 13.Rels; 15.Eskvayr; 16.Tarxan; 17.İncəsu; 18.Atlant; 20.Omnya; 21.Triko. **Soldan sağa:** 1.Reflektor; 5.Pay; 7.Hürriyet; 8.Onon; 10.Nauru; 11.Qrenada; 12.Taurt; 14.Qogen (Pol); 19.Apollon; 21.Tokat; 22.Xına; 23.Gəmiqaya; 24.NEA; 25.Plutokrat.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi
Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az
Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az
Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651
M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60
Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)
«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 15000

idman

# Velosiped idmanının trek növü üzrə ölkə çempionatı başa çatıb

**Azərbaycan Velosiped İdmanı Federasiyasının 2017-ci il üçün müəyyənləşdirdiyi təqvim planına əsasən, Respublika Velotrekində velosiped idmanının trek növü üzrə ölkə çempionatı keçirilib. İki gün davam edən yarışda müxtəlif klub və cəmiyyətlərin 70-ə yaxın idmançısı iştirak edib.**



Ölkə çempionatının proqramına əsasən, iştirakçılar 500 metr, 2 və 3 kilometr məsafəyə fərdi ötüşmə, həmçinin skretç növündə mübarizə aparıblar. Qızlar arasında Ayan Xankişiyeva həm 500, həm də 2 kilometr məsafəyə fərdi ötüşmədə bütün rəqiblərini qabaqlamaqla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. U-15 yaş kateqoriyasında çıxış edən Nikita Sitov 500 metr və 2 kilometr məsafələrə fərdi ötüşmədə birinci olsa da, 7 kilometr məsafəyə skretç növündə Kamran Mirzəxanovu özündən irəli buraxmaqla ikinci yeri tutub. U-17 kateqoriyasında Nəcəf Bağırov 500 və 2 kilometr məsafələrə fərdi, 7 kilometr məsafəyə skretç yarışında hamıdan güclü olub. Gənclər arasında İvan Orlov 500 metr və 3 kilometr məsafəyə fərdi, 10 kilometr məsafəyə isə skretç yarışında Azərbaycan çempionu adını qazanıb.

Mükafata layiq yerlər tutmuş velosipedçilər diplom və hədiyyələr, həmçinin pul mükafatı ilə təltif ediliblər.

Yığma komandamızın baş məşqçisi Aleksandr Averin bildirib ki, artıq mövsümə yekun vururuq və bu, bizim cari ildə keçirdiyimiz son yarışdır. Azərbaycan çempionatını maraqlı edən daha bir məqam yarışın nəticələrinin Beynəlxalq Velosipedçilər İttifaqına (UCI) göndərilməsidir. Yəni mükafata layiq yerlər tutmuş idmançılar bununla öz reytinqlərini xeyli artıracaqlar və bu da beynəlxalq yarışlarda iştirak baxımından olduqca böyük əhəmiyyət daşıyır. Elə bunu nəzərə almaqla, idmançıların bu yarışa necə önəm verdiyini hiss etmək çətin deyil.

# «Qızıl top»a namizədlərin adı açıqlanıb




**«France Football» jurnalı 2017-ci ilin yekunlarına əsasən «Qızıl top»a namizəd futbolçuların adlarını dərc edib. Maraqlıdır ki, onların ən çoxu İspaniyanın «Real Madrid» klubundandır.**

**Mükafata namizəd oyunçular bunlardır:**

Lionel Messi («Barselona», Argentina), Neymar (PSJ, Braziliya), Luis Suares («Barselona», Uruqvay), Kriştianu Ronaldu («Real Madrid», Portuqaliya), Serxio Ramos («Real Madrid», İspaniya), Marselo («Real Madrid», Braziliya), Luka Modriç («Real Madrid», Xorvatiya), Kərim Benzema («Real Madrid», İspaniya), Paulo Dibala («Yuventus», Argentina), Eden Azar («Çelsi», Belçika), Leonardo Bonuççi («Milan», İtaliya), İsko («Real Madrid», İspaniya), Toni Kroos («Real Madrid», Almaniya), Kilian Mbappe (PSJ, Fransa), Canluici Buffon («Yuventus», İtaliya), Pyer-Emerik Obameyanq («Borussiya» Dortmund, Almaniya), Edinson Kavani (PSJ, Fransa), Robert Levandovski («Bavariya», Polşa), Mats Hummels («Bavariya», Almaniya), Antuan Qrizmann («Atletiko», Fransa), Sadio Mane («Liverpul», Seneqal), Radamel Falkao («Monako», Kolumbiya), Kevin de Breyne («Mançester Siti», Belçika), David de Xea («Mançester Yunayted», İspaniya), Harri Keyn («Tottenhem», İngiltərə), Edin Ceko («Roma», Bosniya və Herseqovina), Yan Oblak («Atletiko», Sloveniya), Filippe Koutinyo («Liverpul», Braziliya), Dris Martens («Napoli», Belçika) və NQolo Kante («Çelsi», Fransa).

Qeyd edək ki, 1956-2009-cu illərdə «France Football» jurnalı dünyanın hər yerindən jurnalistlərin səsverməsinin nəticələrinə görə «Qızıl top»u ən yaxşı futbolçuya təqdim edib. 2010-2015-ci illərdə mükafat FIFA ilə birgə təqdim olunub. Lakin keçən ildən etibarən «France Football» jurnalı bu mükafatı tək təqdim etmək hüququnu bərpa edib.

«Qızıl top»un hazırkı sahibi «Real» və Portuqaliya yığmasının hücumçusu Kriştianu Ronaldudur.

## Dünyanın ən bahalı transferi reallaşa bilər




İngiltərənin «Mançester Siti» klubu Argentina millisinin və İspaniyanın «Barselona» klubunun ulduz futbolçusu Lionel Messini öz sıralarına qatmaq istəyir. İspaniyanın «AS» idman nəşrinin məlumatına görə, transfer futbol dünyasında görünməmiş məbləğə - 400 milyon avroya başa gələ bilər. Qeyd edək ki, Messinin «Barselona» ilə müqaviləsi 2018-ci ilin iyun ayınadək qüvvədədir. Yanvarın 1-dən isə onun digər klublarla danışıq aparmaq hüququ olacaq. Xatırladaq ki, bundan əvvəl dünya səviyyəli futbolçu mətbuata açıqlamasında bildirmişdi ki, o, 2018-ci ilin yayında «Barselona»nı sərbəst agent kimi tərk etmək niyyətindədir.

# Müstəqillik gününə həsr olunmuş veloyürüş

Biləsuvar Rayon Gənclər və İdman İdarəsinin, YAP Biləsuvar rayon təşkilatı Gənclər Birliyinin və Azərbaycan Velosiped İdmanı Federasiyasının birgə təşkilatçılığı ilə 18 Oktyabr - Dövlət Müstəqilliyi Gününə həsr olunmuş veloyürüş keçirilib. Müxtəlif yaş qruplarından ibarət 100-dən artıq velosipedçinin iştirak etdiyi yürüş Biləsuvar şəhərinin girişindən start götürməklə Heydər Əliyev küçəsi boyunca davam edib.

Veloyürüşdə fərqlənmiş iştirakçılar Biləsuvar Rayon Gənclər və İdman İdarəsinin və Azərbaycan Velosiped İdmanı Federasiyasının diplom və hədiyyələri ilə təltif ediliblər. Mükafatları Biləsuvar Rayon Gənclər və İdman İdarəsinin rəisi Aqşin Bağırov və Azərbaycan Velosiped İdmanı Federasiyasının baş katibi Fərhad Əliyev təqdim ediblər.

mozaika

texnologiya



## Süni intellektə malik holoqram

«VNTANA» və «Satisfi Labs» şirkətləri tərəfindən sahibkarlara biznesdə istifadə üçün şəxsi holoqrafik robot-köməkçilərin hazırlanmasına imkan verən yeni platforma yaradılıb. Bu layihə müştərilərlə qarşılıqlı əlaqədə olan robotun holoqrafik bədəninin yaradılması üçün süni intellekt və əlavə reallıq texnologiyalarını birləşdirir.

Yeni sistemin əsas xüsusiyyətlərindən biri süni intellektin insanlarla qarşılıqlı əlaqədə olması haqqında məlumatları toplamaq və emal etmək qabiliyyətidir. Bu da sistemə hər bir şəxslə unikal ünsiyyət qurmağa imkan verir. Sifətin tanınması sistemi və emosiyaların tanınması üçün əhval-ruhiyyənin analizi modulundan da istifadə olunacaq. İstehsalçılar iddia edirlər ki, yeni «ağıllı» holoqramlar hələlik belə ünsiyyətə hazır olmayan insanları da stressdən azad edə bilər.

## Elektriklə işləyən təyyarə hazırlanır

Böyük Britaniyanın «Easyjet» aviaşirkəti elektriklə işləyən sərnişin təyyarəsi hazırlamaq qərarına gəlib. Şirkət tarixə düşəcək bu işin həyata keçirilməsi üçün mühəndis və kimyaçılardan ibarət qrup yaradıb. Şirkətdən bildirilib ki, 500 kilometr məsafəni qət edə biləcək bu təyyarənin hazırlanmasına artıq başlanılıb. Elektriklə işləyən təyyarənin ən böyük üstünlüyü yanacaq xərcinin minimuma endirilməsidir.

Şirkətin icraçı direktoru Karolin Makkol deyib: «Eynilə avtomobil sənayesindəki kimi artıq aviasiya sənayesində də ətraf mühitdəki mənfi təsirləri azaltmaq üçün elektrik texnologiyasından faydalanırlar. İlk dəfə yanacaqsız təyyarə uçuşunu həyata keçirəcəyimiz üçün həyəcanlıyıq. Elektriklə işləyən təyyarənin nə vaxt uçacağı maraqla gözlənilir».

flora

## Erkən açan çiçəklər

Primulanın çox vaxt ilk çiçək adlandırılmasının səbəbi onun erkən açılması ilə bağlıdır. Çiçəkləri açara bənzədiyindən ona «yayın açarı» da deyirlər. Ayrı-ayrı xalqların mifologiyasında primula haqqında müxtəlif əfsanələr var.

Onunla bağlı bir çox inanclar da var. Məsələn, Almaniyada onu toy müjdəçisi hesab edirlər. Yerli əhalinin inamına görə, bitkinin ilk çiçəklərinin açıldığını görən qız həmin il ərə gedəcək, oğlan evlənəcək. Qərbi Avropada yaşamış bəzi qədim xalqlar primulanı sevgi şərbətlərinin tərkibinə qatırdılar. İngiltərəlilər isə cırtdan və pərilərin primulanın altında gizləndiklərini güman edirlər.

Vətəni Çin hesab edilən bitkinin 200-ə qədər növü var. Yabanı halda sulu çayırlıqlarda və meşənin rütubətli hissələrində bitir. Onu ev şəraitində yetişdirərkən düz düşən günəş işığı altında saxlamamalı, yalnız yarımkölgəli və çox aydınlıq olan yerdə becərmək lazımdır. Həddindən artıq isti və soyuq havada bitkinin çiçək və yarpaqları solur. Sərin və hava cərəyanı olan yerdə daha yaxşı yetişir.

Tibdə primulanın kök və çiçəklərindən istifadə olunur. Yazda və payızda çiçəkləri torpaqdan çıxarılaraq təmizlənir və günəş işığı altında qurudulur. Köklərində uçucu yağlar, saponinlər, qlikozidlər və enzimlər var. Bitki sinəyumşaldıcı və yüngül sidikqovucudur, bronxit və miqrenin müalicəsində istifadə olunur. Primula kökündən çıxarılandan sonra tək-tək əkilən incə budaqların köklərindən yeni bitkilər əmələ gəlməyə başlayır. Çıxan yeni bitkilər başqa dibçəklərə əkilərək yeni primulalar yetişdirilir.

aktual

## Qəfil hava dəyişikliyi

Son günlər havaların kəskin dəyişməsi uşaqlar arasında kəskin respirator-virus infeksiyalarının artmasına səbəb olub. Xüsusən valideynlər qəflətən dəyişən havalarda ortaya çıxan belə xəstəliklərə diqqət yetirməlidir, çünki qəfil iqlim dəyişikliyi daha çox kiçik yaşlı uşaqlarda ciddi problemlərin ortaya çıxması ilə nəticələnə bilər.

Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının uşaq nevroloqu, dosent Rauf Bəylərov universitetin mətbuat xidmətinə müsahibəsində bildirib ki, vaxtında müalicə edilməyən hansısa xəstəliyin bir müddətdən sonra ağır fəsadları ortaya çıxa bilər: «Xüsusilə, son günlər uşaqlar arasında geniş yayılmış boğaz ağrısını vurğulamaq istərdim. Bu, onlarda kəskin respirator-virus infeksiyaları və ya angina fonunda üzə çıxır. Bu zaman uşaqlar uzun müddət boğaz ağrısından, hərarətin qalxmasından əziyyət çəkirlər. Belə uşaqlar zamanında həkimə aparılmadıqda, patogenetik müalicə olunmadıqda onlarda ürək və böyrək problemləri ortaya çıxa bilər. Ona görə də uşaqlar müayinə olunduqda, böyrəklə yanaşı, mütləq ürək də yoxlanılmalıdır. Əgər uşaqda kəskin revmatik qızdırma varsa, bir fəsad kimi glomerulonefrit yarana bilər. Ona görə də müalicə zamanı bu iki xəstəlik mütləq nəzərə alınmalıdır. Glomerulonefrit xəstəliyinin əlamətlərinə gəldikdə, bu zaman valideynlər mütləq uşaqlarda sidiyin rənginə diqqət yetirməlidirlər. Xəstəlik zamanı uşaqlarda sidiyin rəngi tündləşir. Bu da hematuriya adlanır, yəni sidikdə çoxlu miqdarda qırmızı qan hüceyrələri - eritrositlər yaranır. Bu zaman hətta uşaqların sifətində, ətraflarında, qarın boşluğunda şişkinlik əmələ gəlir. Bəzən bir çox valideynlər bunu anlamır, uşağın kökəlməsi kimi qəbul edirlər. Ona görə də belə halı öz uşağında müşahidə edən hər bir valideyn ilk öncə onun sidiyinin rənginə fikir verməli, dəyişiklik olduğu təqdirdə, təcili həkimə müraciət etməlidir.

Xəstəlik özünü uşaqlar arasında digər əlamətlərlə də büruzə verə bilər. Onlarda yorğunluq, halsızlıq, baş ağrıları kimi hallar da müşahidə edilə bilər. Bu vəziyyət çox vaxt təzyiqin qalxması ilə müşayiət olunur. Bu xəstəliyə düçar olan uşaqlar 1 il ərzində müalicə olunmalı, 5 il isə həkim nəzarətində qalmalıdırlar. Düzgün diaqnoz qoyulduqda uşaqlar tam müalicə olunar və sağalma ehtimalı daha da artar. Əks halda, bu xəstəlik gələcəkdə böyrək çatışmazlığı və qazanılan ürək qüsurunun yaranmasına səbəb ola bilər. Onu da qeyd edim ki, xəstəlik daha çox 7-15 yaş arası uşaqlarda geniş yayılıb. Bu səbəbdən, həmin yaş qrupuna daxil olan uşaqlarda qeyd edilən əlamətlərə daha ciddi yanaşmaq lazımdır».



mədəniyyət

## Bakıya həsr edilən əsər müsabiqənin qalibi olub

Estoniyada Kersti Kivirüüt və onun qələmə aldığı «Küləklər şəhəri» əsəri 2017-ci il ədəbiyyat müsabiqəsinin qaliblərindən biri olub. Macəra dolu əsər Bakıya həsr edilib.

Kersti Kivirüütün dediyinə görə, bu kiçik əsərdə sevdiyi Azərbaycandan yazmaq ona çox xoş olub. Əsərin yazılmasında Tur Heyerdalın hipotezindən, atəşpərəstlik və şimal ölkələri mifologiyasından istifadə edilib. Əsərdə müxtəlif dövrlərdəki hadisələrə toxunulur. İkinci epizodda yazıçı oxucuları Qarabağdan didərgin düşmüş Əhmədlə və onun yaşadığı dəhşətli faciə ilə tanış edir.

«Küləklər şəhəri» əsəri yaxın aylarda eston dilində işıq üzü görəcək və geniş oxucu kütləsinin müzakirəsinə veriləcək.

**Müdriklər deyib ki...**

***«Bəşəriyyəti həqiqətə, ədalətə və xoşbəxtliyə ancaq elm apara bilər».***

*Emil Zolya (1840-1902)*

